AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

10 fevral 2017-ci il № 9-12 (9103) Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### RAUF VƏLİYEV: "BİZİM ÇOX ZƏKALI, BACARIQLI VƏ İSTEDADLI GƏNCLƏRİMİZ VAR."

*Fevralın 1-də Gənclər Günü münasibətilə Yaxt-klubda Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində çalışan və Dövlət Dəniz Akademiyasında təhsil alan gənclərlə görüş keçirildi. Görüşdə Bakı Gəmiqayırma Zavodunun rəhbərliyi və fəal gəncləri də iştirak edirdilər.*

Səh. 2

### XOCALI SOYQIRIMINI TÖRƏDƏNLƏR TEZLİKLƏ ƏDALƏT MƏHKƏMƏSİ QARŞISINDA CAVAB VERMƏLİ VƏ CƏZALANDIRILMALIDIR




*Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar bəyanat yayıb.*

Səh. 3

### AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN NAİLİYYƏTLƏRİNDƏ YAP ÜZVLƏRİNİN XİDMƏTİ AZ DEYİL



*Gəmiçilikdə çalışan və Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları ilə silahlanmış Yeni Azərbaycan Partiyasının üzvü olması ilə qanuni iftixar hissi keçirən 8 işçimiz on iki il əvvəl Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatına "Xəzər dənizçiləri" ərazi ilk təşkilatının yaradılması xahişi ilə müraciət edir və az sonra onların bu arzuları qarşısında "yaşıl işıq" yandırılır.*

Səh. 4

### "TRANZİT DAŞIMALARDAN ƏLDƏ OLUNAN GƏLİRLƏR 5,5 DƏFƏ ARTIRILMALIDIR"



*Transxəzər dəhlizi ilə daşımaların həcminin artırılması ilə əlaqədar Kurık limanının tikintisinin ikinci fazasının icrasına başlanmalıdır.*

Səh. 5

### DƏNİZDƏ İNSAN HƏYATININ MÜHAFİZƏSİ ÜZRƏ TƏLİM KURSLARI KEÇİRİLİB



*SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin Dənizdə insan həyatının mühafizəsi üzrə təlim mərkəzində "Dəniz Neft-Qaz Sənayesi üzrə Təlim Təşkilatı"nın (OPITO) standartlarının tələblərinə uyğun olaraq, şirkətin əməkdaşları üçün "Dənizdə təhlükəsizlik texnikasının əsasları və fövqəladə hallar şəraitində hazırlıq" (BOSIET) üzrə təlim kursu keçirilib.*

Səh. 6

### 13 MEDAL QAZANIBLAR



*Azərbaycan cüdoçuları İtaliyanın Liqnano şəhərində ənənəvi "Alpe Adrea" beynəlxalq turnirində 5 qızıl, 4 gümüş və 4 bürünc medal qazanıblar.*

Səh. 8

***Azərbaycan çox böyük müsbət beynəlxalq imicə malikdir. Beynəlxalq təşkilatlarda bizim sözümüz keçir və təsirimiz artır. Biz beynəlxalq əlaqələrimizi bu il də genişləndirəcəyik. Keçən il ölkəmizə 20-yə yaxın dövlət və hökumət başçısı rəsmi və işgüzar səfərlər etmişdir. Bu da bir göstəricidir. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal işləmişik. İslam Əməkdaşlıq Təşkilatı Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və aprel ayında Azərbaycana Ermənistan tərəfindən edilən təcavüzlə bağlı kontakt qrupu yaratdı. Bu qrup artıq fəaliyyətə başlayır. Bu, bizim böyük uğurumuzdur. Son illər ərzində bizim fəaliyyətimiz nəticəsində Qoşulmama Hərəkatı Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması ilə bağlı qətnamələr qəbul etmişdir.***

Dağlıq Qarabağ münaqişəsinin həlli yolları bəllidir. Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bizim ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bütün işğalçı qüvvələr bizim torpaqlarımızdan çıxarılmalıdır. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Keçən il ATƏT də bu məsələ ilə bağlı öz ciddi sözünü demişdir - status-kvo qəbuledilməzdir. Bu, aksiomdur və bu, dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılması deməkdir. Budur, münaqişənin həlli yolları. Bunun başqa yolu ola bilməz. Azərbaycan heç vaxt öz torpağında ikinci qondarma erməni dövlətinin yaranmasına icazə verməyəcək. Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. İşğalçı rejim, Ermənistan rəhbərliyi bunu nə qədər tez dərk etsə, bu, onlar üçün o qədər də yaxşı olacaq.

2016-cı ilin aprel ayında Azərbaycan dövləti və Azərbaycan Ordusu işğalçılara çox ciddi zərbələr vurmuşdur. Növbəti erməni hərbi təxribatına cavab olaraq, Azərbaycan Ordusu əks-hücum əməliyyatı keçirmiş və minlərlə hektar torpağı işğaldan azad etmişdir. Bu, bizim şanlı tarixi qələbəmizdir. Bu, bir daha dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərir. Bir daha onu göstərir ki, biz istənilən vaxtda məsələni hərbi yolla həll edə bilərik. Minlərlə hektar torpaq işğalçılardan boşaldıldı. İndi orada təmizlik işləri, bütün mənalarda təmizlik işləri aparılır. Azərbaycan Ordusu indi on minlərlə hektar torpağa nəzarət edir. İndi o ərazilərdə işğalçıların izi-tozu qalmayıb. Biz o bölgələrdə lazımi tədbirləri görəcəyik ki, vətəndaşlarımız oraya qayıtsınlar və artıq bu proses başlayır.

Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Biz hərbçilərimizlə fəxr edirik. Bu döyüşlər zamanı Azərbaycan xalqı bir daha öz birliyini nümayiş etdirmişdir. Beləliklə, hesab edirəm ki, 2016-cı il münaqişənin həlli ilə bağlı çox önəmli il olmuşdur. Çünki qarşı tərəf – Ermənistan təşviş içində idi, vasitəçilərdən xahiş edirdi ki, tezliklə bu döyüşlər başa çatsın və onlar danışıqlar prosesinə qayıtmağa hazır olduqlarını bildirmişlər. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, onlar müxtəlif beynəlxalq təşkilatlara, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etmişlər. Baxmayaraq ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının bu məsələ ilə heç bir əlaqəsi yoxdur. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına bu vaxta qədər rəhbərlik etmiş şəxslər sadəcə olaraq, böyük siyasi səhv buraxaraq ermənipərəst mövqe və qəbuledilməz fikirlər ifadə etmişlər. İndi biz hamımız onların aqibətinin necə olduğunu yaxşı bilirik. Yəni, aprel döyüşləri həm bizim parlaq qələbəmizdir, həm bir daha Azərbaycan dövlətinin gücünü göstərdi, həm də bir daha göstərdi ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Biz bütün təxribatlara layiqli cavab verəcəyik. Eyni zamanda, illər boyu Ermənistan tərəfindən yaradılmış mif tamamilə darmadağın edildi. Xaricdən silahlar, pullar, digər yardımlar olmasa, onlar bir həftə ərzində bizim qabağımızda duruş gətirə bilməzlər. Bunu özləri də etiraf edirlər. Biz bunu çoxdan bilirdik.

Biz həmişə olduğu kimi, konstruktiv mövqe tuturuq, haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq normaları da həmçinin. Tarixi həqiqət də bizim mövqeyimizi möhkəmləndirir. Hərbi güc də, iqtisadi potensial da, siyasi nüfuz da bizdədir. Yəni, biz məsələni istədiyimiz kimi həll edəcəyik. Bizim istəyimiz ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağını qaldırmaqdır. Budur, bizim məqsədimiz və biz bu məqsədə doğru irəliləyirik. Aprel döyüşləri bu istiqamətdə çox önəmli tarixi addım olmuşdur.



***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*(Yanvarın 10-da Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən)*

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 21** **Bakı şəhəri, 30 yanvar 2017-ci il**

***"Müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclərin, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərclərinin normalarının müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 4 iyun tarixli 89 nömrəli qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**



1. "Müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclərin, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərclərinin normalarının müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 4 iyun tarixli 89 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 694) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərclərinin gündəlik norması Xəzər dənizində üzən gəmilərin üzücü heyəti üçün 15 manatadək, Xəzər dənizindən kənarda üzən gəmilərin üzücü heyəti üçün 15 ABŞ dollarınadək məbləğdə müəyyən edilsin.".

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Artur Rasi-zadə,***
***Azərbaycan Respublikasının Baş naziri***

## GƏMİÇİLİYİN TƏSİS ETDİYİ YENİ ŞİRKƏTLƏR GƏMİLƏRİMİZİN XARİCİ SULARDA DAHA SƏMƏRƏLİ İSTİSMARINA NAİL OLACAQ

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Türkiyədə iki yeni şirkət təsis edib. "Caspdry" və "Casptankers" adları ilə fəaliyyət göstərəcək şirkətlər Xəzərdənkənar hövzələrdə Azərbaycan bayrağı altında üzən gəmilərin daha səmərəli istismarına nail olmağa çalışacaq.***

"Caspdry" quru, "Casptankers" isə maye yüklər daşıyan gəmilərin istismarını həyata keçirəcək.

Fevralın 3-də İstanbulda keçirilən mərasimdə dünyanın tanınmış təsnifat cəmiyyətlərindən olan Amerika Gəmiçilik Bürosu ( ABS) "Caspdry" şirkətinə İSM-in tələblərinə cavab verdiyini təsdiqləyən uyğunluq sertifikatını təqdim edib. Yaxın vaxtlarda "Casptankers"ə də belə sertifikatın təqdim olunacağı gözlənilir. Bu sertifikatlar isə hər iki şirkətə Xəzərdənkənar hövzələrdə iri həcmli gəmilərin istismarına imkan verəcək.





ABS-in rəsmi nümayəndələri və auditorlarının iştirak etdiyi mərasimdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev bildirib ki, "Caspdry" və "Casptankers" bütün standartlara, o cümlədən yüksək təhlükəsizlik tələblərinə cavab verərək beynəlxalq sularda quru yük və neft məhsulları daşımalarında lider şirkətlərin birinə çevriləcəkdir. Eyni zamanda, şirkətlərin fəaliyyəti azərbaycanlı dənizçilərin beynəlxalq sularda üzmə imkanlarını da xeyli genişləndirəcək.

Donanmasının yenilənməsinə xüsusi diqqət yetirən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin əsas hədəflərindən biri də xarici sularda davamlı fəaliyyət göstərməkdir. Hazırda Gəmiçiliyin Qara və Aralıq dənizlərində 10 quru yük gəmisi üzür.

# RAUF VƏLİYEV: "BİZİM ÇOX ZƏKALI, BACARIQLI VƏ İSTEDADLI GƏNCLƏRİMİZ VAR."

"Hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan vətənpərvəri Azərbaycanın gələcəyi haqqında düşünməlidir."

*Heydər ƏLİYEV,*
*Ümummilli lider*

"Gələcəkdə ölkəmizi gənclərimiz idarə edəcəklər. Ölkəmizin necə inkişaf edəcəyi onlardan asılıdır. Qoyduğumuz yol və seçdiyimiz strateji xətt öz uğurunu təsdiqləyib. Gələcəkdə gənclərdən asılı olacaqdır ki, ölkəmiz necə inkişaf edəcək və hansı yollarla gedəcək."

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*






## GƏMİÇİLİKDƏ ÇALIŞAN GƏNCLƏRİN ÜMİDLƏRİ DOĞRULTDUQLARINI MÜŞAHİDƏ ETMƏK ÇOX SEVİNDİRİCİDİR

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev fevralın 1-də Gəmiçilikdə çalışan gəncləri Gənclər Günü münasibətilə təbrik edib. Təbrikdə deyilir:***

*Əziz gənclər!*

*2 fevral Gənclər Günüdür. İyirmi il əvvəl imzaladığı müvafiq Sərəncamla təsis edilən bu bayramı Ümummilli Liderimiz Heydər Əliyevin cəmiyyətdə gedən proseslərin önündə görmək istədiyi Azərbaycan gəncliyinə töhfəsi də saymaq olar.*

*Ulu Öndərin əsasını qoyduğu gənclər siyasətinin möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə uyğun davam etdirilməsi gənc nəslin hərtərəfli inkişafı və səmərəli fəaliyyəti üçün geniş imkanlar yaradıb. Bu imkanlardan bəhrələnən gənclər də borclu qalmır, onlara bəslənilən ümidləri layiqincə doğrultmağa çalışırlar. Dövlət başçısının sözləri ilə desək: "Gənclər cəmiyyətimizin fəal üzvləri kimi ölkəmizin güclənməsində əsas rol oynayırlar. Mən gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu, çox önəmlidir."*

*Bütün ölkələr kimi, müstəqil Azərbaycan Respublikasının da gələcəyi gənclərdən asılı olcaq. Bu baxımdan bu gün ölkəmizdə gənclik adına görülən bütün işlər – gənclərin intellektual yüksəlişinə sərmayə qoyulması, fərdi keyfiyyət və qabiliyyətlərinin inkişaf etdirilməsi, milli ruhda tərbiyə olunması... Azərbaycanın mənafeyinə xidmət edir.*

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin çoxminli kollektivinin də böyük bir hissəsini yüksək vətəndaşlıq hisslərinə malik yeniyetmə və gənclər təşkil edir. Gəmiçiliyin rəhbərliyi də qarşıda duran çətin və şərəfli vəzifələrin həllində onların istedad və bacarığına, təşəbbüskarlığına arxalanır. Gənclərimizin ümidləri doğrultduqlarını müşahidə etmək isə çox sevindiricidir.*

*Əziz gənclər! Sizi Gənclər Günü münasibəti ilə səmimi-qəlbdən təbrik edir, sizə möhkəm cansağlığı, xoşbəxtlik, təhsildə və əməkdə yeni-yeni uğurlar arzulayıram.*

*Bayramınız mübarək!*

**Rauf Vəliyev,**
***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri***











***Fevralın 1-də Gənclər Günü münasibətilə Yaxt-klubda Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində çalışan və Dövlət Dəniz Akademiyasında təhsil alan gənclərlə görüş keçirildi. Görüşdə Bakı Gəmiqayırma Zavodunun rəhbərliyi və fəal gəncləri də iştirak edirdilər.***

Tədbir iştirakçılarını əlamətdar gün münasibəti ilə təbrik edən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev artıq iyirminci dəfə qeyd edilən bu bayramın tarixindən, gənclərə göstərilən diqqət və qayğıdan, Azərbaycan gəncliyinin ölkənin ictimai-siyasi həyatındakı mühüm rolundan, taleyini Gəmiçiliklə bağlayanların dəniz nəqliyyatının inkişafına töhfələrindən danışdı.

Gəmiçiliyin rəhbəri bildirdi ki, ölkəmizdə gənclər siyasətinin bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Gənclərin himayədarı kimi çıxış edən Ümummilli Lider ölkəmizə rəhbərlik etdiyi illərdə yeniyetmələrin kamil şəxsiyyət kimi formalaşmalarına, yüksək təhsil almalarına, dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakına, asudə vaxtlarının səmərəli təşkilinə həmişə böyük önəm verirdi.

Hər bir xalqın gələcəyinin gənclərdən birbaşa asılı olduğunu vurğulayan Rauf Vəliyev müstəqil Azərbaycanın gələcəyi ilə bağlı narahatçılığa əsas olmadığını diqqətə çatdırdı: "Əksinə, daha xoşbəxt günlərimizin qabaqda olduğuna böyük bir inam var. Çünki əsası Ulu Öndər tərəfindən qoyulmuş və möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən və mahiyyətcə yeni mərhələyə yüksələn gənclər siyasəti nəticəsində bu gün ölkəmizdə bilikli, müasir dünyagörüşə malik, azərbaycançılıq ideyalarına dərindən yiyələnən vətənpərvər, fiziki və mənəvi cəhətdən yenilməz gənclər yetişib. Gənclərlə bağlı dövlət proqramlarının qəbul edilməsi, İnkişaf Strategiyasının təsdiq olunması, Gənclər Fondunun yaradılması və s. gənclərin potensialını üzə çıxarmağa, onların bilik və bacarığından səmərəli istifadə etməyə xidmət edir."

Sədr bildirdi ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində də gənclərlə işə xüsusi önəm verilir. Gənclərin yaxşı təhsil almaları, bilik və bacarıqlarını artırmaları, müasir dövrün tələblərinə uyğun fəaliyyət göstərə bilmələri üçün burada hər cür şərait yaradılıb. Gəmiçilikdə aparılan islahatlardan, onun inkişaf perspektivlərindən, müasir, beynəlxalq standartlara tam cavab verən bir şirkətə çevrilməsi üçün həyata keçirilən mühüm tədbirlərdən geniş bəhs edən Rauf Vəliyev bu işlərdə gənclərə daha çox güvəndiyini vurğuladı. Qeyd etdi ki, yüksəkixtisaslı kadrların hazırlanmasına qoyulan vəsait sonralar bütün sahələrdə üstünlüyü təmin edən həlledici amilə çevrilir. Gəmiçiliyin inkişaf dinamikası və rəqabətqabiliyyətliyini də xeyli dərəcədə burada çalışan gənclərin təşəbbüskarlığı, onların öz potensiallarını necə reallaşdırdıqları müəyyən edəcək. İndiki nəslin müstəqillik illərində formalaşdığını onların böyük xoşbəxtliyi hesab edən sədr qeyd etdi ki, gənclərin ölkənin inkişafına xidmət göstərə bilmələri üçün ilk növbədə bilikli, savadlı olmaları vacibdir. Bu baxımdan, xüsusilə Azərbaycan Dövlət Dəniz Akademiyasında təhsil alan gənclər çiyinlərinə düşən məsuliyyəti unutmamalıdırlar.

Gəmiçiliyin rəhbəri üzünü görüş iştirakçılarına tutaraq dedi: "Bu gün Gəmiçilikdə rəhbər vəzifələrdə çalışan gənclər az deyil. Onlar sizin üçün nümunə olmalıdırlar. Yaxşı təhsil alan, yaxşı mütəxəssis olan gənclər bundan sonra da Gəmiçilikdə layiq olduqları vəzifələrdə çalışa biləcəklər". Gəncləri daim öz üzərində işləməyə və təşəbbüskar olmağa çağıran sədr çıxışının sonunda onları açıq dialoqa dəvət etdi.

Strateji inkişaf və investisiya layihələri departamentinin rəisi Tariyel Mirzəyev çıxışında Gəmiçiliyin gənclərlə bağlı siyasətindən danışdı. Bildirdi ki, güclü yerli dənizçi kadr potensialının hazırlanması və ölkədə dənizçi peşəsinin təbliği, akademiyadan tələbə buraxılışında keyfiyyətin daha da artırılması, personalın peşəkarlığının davamlı inkişaf etdirilməsi və rifahının yaxşılaşdırılması, potensiallı gənclərin aparıcı vəzifələrə daha çox irəli çəkilməsi kimi məsələlər əsas priotetlərdəndir.

Bakı Gəmiqayırma Zavodunun baş direktor müavini İmamverdi Həsənov müəssisənin yaranma tarixi, iş prinsipləri, istehsal prosesləri haqqında görüş iştirakçılarına məlumat verdi. Xüsusilə vurğuladı ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində olduğu kimi, regionun ən böyük gəmiqayırma müəssisəsində də hazırda yüksək vəzifələrdə çalışanların əksəriyyəti məhz gənclərdir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevin açıq və səmimi söhbətə üstünlük verməsi və tədbirin əvvəlindən gəncləri açıq dialoqa dəvət etməsilə ilk dəqiqələrdən yaradılan gözəl ab-hava görüşün sonuna kimi qorunub saxlanıldı. Elə buna görə, tədbir iştirakçıları arzu və istəklərindən, onları düşündürən məsələlərdən ürəklə söz açdılar. Gəncləri narahat edən bütün məsələlərə aydınlıq gətirən Rauf Vəliyev onların heç bir sualını cavabsız qoymadı.

Görüşün sonunda əməkdə və təhsildə fərqlənən gənclərə qiymətli hədiyyələr təqdim olundu.

***"DƏNİZ"***

# XOCALI SOYQIRIMINI TÖRƏDƏNLƏR TEZLİKLƏ ƏDALƏT MƏHKƏMƏSİ QARŞISINDA CAVAB VERMƏLİ VƏ CƏZALANDIRILMALIDIR

***Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar bəyanat yayıb.***

Bəyanatda deyilir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə, kobudcasına pozulması ilə nəticələnən, bəşər tarixinə böyük qanlı faciə kimi daxil olan Xocalı soyqırımından 25 il ötür. Bu faciə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir.




1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində erməni silahlı birləşmələrinin keçmiş sovet ordusunun Xankəndidəki 366-cı motoatıcı alayı ilə birgə törətdiyi cinayət beynəlxalq hüquq baxımından məhz soyqırımı kimi qiymətləndirilməlidir. Bu alayın çoxsaylı ağır texnikası şəhərə yeridilib, cinayətkarlar vahimə içərisində şəhəri tərk etmək məcburiyyətində qalan dinc insanları amansızcasına qətlə yetiriblər, şəhər yerlə-yeksan edilib, yaşayış evləri və sosial infrastruktur tamamilə dağıdılıb və yandırılıb.

Xocalı soyqırımı zamanı 613 nəfər insanın, o cümlədən 106 qadın, 63 uşaq, 70 qocanın həyatına son qoyulub, yüzlərlə dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailə bütünlüklə məhv edilib, 25 uşaq hər iki valideynindən, 130 uşaq isə valideynlərinin birindən məhrum edilib, əsir və girov götürülənlərə amansız işgəncələr verilib. Bu zaman soydaşlarımızın əsas insan hüquqları, ən başlıcası isə təməl hüquq olan yaşamaq hüququ kütləvi şəkildə pozulub.

Bu faciəni törətməklə Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirən və ölkəmizin ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 20 min soydaşımızın həyatına son qoyulub, torpaqlarımızın 20 faizi işğala məruz qalıb.

Xocalıda erməni qəsbkarları tərəfindən törədilən bu kütləvi insan qırğını ağlasığmaz qəddarlığı və işgəncələri ilə birmənalı olaraq, genosid faktıdır. Belə ki, beynəlxalq hüquqa əsasən genosid ən ağır cinayətlərdəndir. BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 (I) saylı qətnaməsində qeyd olunur ki, genosid insan qruplarının yaşamaq hüququnu pozmaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dəyərlərdən məhrum edir, BMT-nin məqsəd və vəzifələrinə, ümumbəşəri dəyərlərə tamamilə ziddir və dünya birliyi tərəfindən pislənir.

Genosid cinayətinin əlamətləri BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul olunmuş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada müəyyən edilib. Xocalı soyqırımı zamanı baş vermiş cinayət əməllərinin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların kütləvi şəkildə məhv edilməsi niyyəti ilə törədilməsi onun genosid aktı olduğunu sübut edir. Azərbaycana qarşı təcavüz zamanı adıçəkilən Konvensiyada təsbit olunmuş genosid cinayətini təşkil edən bütün əməllər tətbiq olunub. Lakin təəssüf ki, Azərbaycanda dinc əhaliyə qarşı belə dəhşətli soyqırımı aktları həyata keçirilməsinə baxmayaraq, bu faktlar, o cümlədən Xocalı soyqırımı beynəlxalq aləmdə hələ də öz hüquqi-siyasi qiymətini almayıb, bu hadisəni planlaşdıranlar, təşkil edənlər və törədənlər məsuliyyətə cəlb edilməyib, layiqli cəzalarını almayıb və bu istiqamətdə hər hansı bir tədbir görülməyib.

İşğal edilmiş Dağlıq Qarabağ və yeddi ətraf rayon Azərbaycan ərazisinin ayrılmaz tərkib hissəsidir. Bunu beynəlxalq hüquq, o cümlədən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli məlum 822, 853, 874 və 884 saylı qətnamələri, BMT Baş Məclisinin "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı 2008-ci il 14 mart tarixli qətnaməsi, AŞPA-nın Azərbaycan ərazilərinin erməni hərbi qüvvələri tərəfindən işğal edildiyini və Dağlıq Qarabağ regionunun separatçı rejimi tərəfindən idarə olunmasını təsdiq edən 2005-ci il tarixli 1416 saylı qətnaməsi və 1690 saylı tövsiyəsi bir daha sübut edir. İşğal nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşərək əsas hüquqları kobudcasına pozulub.

Ermənistan Avropa Şurasına üzv qəbul olunarkən Parlament Assambleyasının 221 saylı Rəyi əsasında öz üzərinə bir sıra öhdəliklər götürüb, Dağlıq Qarabağ münaqişəsinin yalnız dinc yollarla nizamlamaq üçün səyləri davam etdirmək, beynəlxalq və yerli mübahisələri, qonşulara qarşı hər hansı güc tətbiqinə və hədələməyə yol vermədən, dinc vasitələrlə və beynəlxalq hüququn prinsipləri əsasında həll etmək öhdəliyini götürüb. Lakin erməni tərəfi qeyri-konstruktiv mövqe nümayiş etdirərək, bu öhdəliklərə əməl etmir, regionda sülhün bərqərar olmasına maneçilik törədir, atəşkəs rejimini mütəmadi olaraq pozur.

Belə ki, 2016-cı il aprelin 2-də işğal olunmuş Azərbaycan ərazilərindən və Ermənistan Respublikası ərazilərindən erməni silahlı qüvvələri tərəfindən qəflətən iri miqyasda Azərbaycan Respublikasının əraziləri, cəbhəyanı bölgələrdə məskunlaşan mülki əhalimizin yaşadığı çoxsaylı yaşayış məntəqələri, məktəblər və digər sosial obyektlər, habelə Azərbaycan Silahlı Qüvvələrinin qoşunlarının təmas xətti boyunca mövqeləri ağır artilleriyadan, iriçaplı silahlardan intensiv atəşə məruz qalıb. Nəticədə dinc əhali, o cümlədən uşaqlar, qadınlar və ahıllar həlak olub və ağır yaralanıb. Bu təxribatlar nəticəsində beynəlxalq sənədlərin, o cümlədən Cenevrə konvensiyalarının müddəaları kobud şəkildə pozulub, bu da ölkəmizə səfər edən xarici jurnalistlər tərəfindən də müşahidə edilib.

Avropa Parlamentinin Dağlıq Qarabağla bağlı 2013-cü il 23 oktyabr tarixli qətnaməsi də beynəlxalq birliyin ölkəmizin haqlı mövqeyini dəstəkləməsini və işğal faktının tanımasını təsdiqləyir. Həmin sənəddə bir daha Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında həllinin vacibliyi qeyd olunub və işğalçı qüvvələrin zəbt olunmuş Azərbaycan ərazilərindən dərhal, qeyd-şərtsiz və tam çıxarılması tələb edilib. Təəssüf ki, bununla bağlı da heç bir tədbir görülməyib və Azərbaycanın zəbt olunmuş əzəli torpaqları hələ də işğal altındadır.

Bu günlərdə Avropa Şurası Parlament Assambleyasının plenar iclasında Ukrayna nümayəndə heyətinin başçısı, elm, mədəniyyət, təhsil və media komitəsinin sədri Vladimir Aryevin "Avropada jurnalistlərə və mətbuat azadlığına hücumlar" mövzusunda məruzəsi üzrə qəbul edilmiş qətnamənin 9-cu bəndində Dağlıq Qarabağın Azərbaycana məxsus olması növbəti dəfə təsdiq edilib. Sənəddə bu kimi əraziləri nəzarətdə saxlayan rejimlərin separatçı mahiyyəti vurğulanıb, bu ərazilər "qanunsuzluğun hökm sürdüyü tamamilə qeyri-şəffaf zonalar" adlandırılıb.

Bəyanatda deyilir ki, ümummilli liderimiz Heydər Əliyev Xocalı soyqırımının əsl mahiyyətini açıqlayıb, hələ 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına hüquqi-siyasi qiymət verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər zaman bu münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasının, zəbt edilmiş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin çıxarılmasının zəruriliyini daim qətiyyətlə vurğulayır, soyqırımı cinayətini törətmiş şəxslərin məsuliyyətə cəlb olunmasının vacibliyini bəyan edir.

Eyni zamanda, Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, müvafiq tədbirlər planı təsdiq edilib və bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən və geniş vüsət almış "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası Xocalı soyqırımı haqqında həqiqətlərin dünyada təbliğ olunmasında, bu faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınmasında mühüm rol oynayır, bunun nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımı ilə bağlı müvafiq qərarlar qəbul edilir.

Son dövrlər bütün dünyada ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı siyasəti pislənilir, Xocalıda törədilmiş qanlı qətliam beynəlxalq hüquq normalarına uyğun olaraq qiymətləndirilir.

Artıq Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, Sudan, İordaniya, Honduras, Qvatemala, Panama, Sloveniya və Cibuti parlamentləri də Xocalı soyqırımını beynəlxalq hüquq normaları müstəvisindən tanıyıblar.

Habelə ABŞ-ın 21 ştatı - Massaçusets, Texas, Nyu-Cersi, Meyn, Nyu-Meksika, Arkanzas, Corciya, Oklahoma, Tennesi, Pensilvaniya, Konnektikut, Florida, Missisipi, Vest Virciniya, İndiana, Yuta, Nebraska, Havay, Montana, Arizona və Aydaho ştatlarının qanunverici orqanlarında da müvafiq qətnamələr qəbul olunub.

İslam Əməkdaşlıq Təşkilatı Ermənistanı təcavüzkar, Xocalı faciəsini isə soyqırımı kimi tanıyan ilk beynəlxalq təşkilatdır. Bu təşkilatın Gənclər Forumunun dünyanın çoxsaylı ölkələrində həyata keçirdiyi "Xocalıya ədalət!" kampaniyasının məramı da beynəlxalq ictimaiyyəti bu qanlı hadisə ilə bağlı ətraflı məlumatlandırmaqdır.

Lakin Xocalı soyqırımına hələ də beynəlxalq miqyasda hüquqi-siyasi qiymət verilməməsi, bu cinayəti törədənlərin cəzalandırılmaması təəssüf və hiddət hissi doğurur.

Eyni zamanda, qeyd olunmalıdır ki, Azərbaycanın və Ermənistanın vətəndaş cəmiyyətlərinin fəalları bir araya gələrək Sülh Platformasının yaradılmasına qərar veriblər və həmin Platforma Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüququn prinsipləri çərçivəsində həllini məqsəd kimi qarşıya qoyublar.

"Xocalı faciəsinin 25-ci ildönümü günlərində şəhidlərin xatirəsini dərin hüznlə yad edərək bildirirəm ki, ikili standartlara yol vermədən, beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olaraq, bu hadisə xüsusi beynəlxalq komissiya tərəfindən araşdırılmalı, səlahiyyətli beynəlxalq qurumlar tərəfindən genosid aktı kimi tanınmalı, cinayət törədənlərə qarşı sanksiyalar tətbiq edilməlidir. Nüfuzlu beynəlxalq qurumları birmənalı mövqe nümayiş etdirərək, bir daha bu soyqırımını pisləməyə, onu törədənlərin tezliklə ədalətli cəzalarını alması üçün səyləri artırmağa çağırıram.

Bir daha bəyan edirik ki, Ermənistan münaqişə ilə bağlı qəbul edilmiş beynəlxalq sənədlərin qərarlarını yerinə yetirməli, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, azərbaycanlı əsir və girovlar azad edilməli, qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqları bərpa olunmalı, onlar öz doğma yurdlarına qayıtmalı, habelə günahsız, dinc insanları məhv edən cinayətkarlar tezliklə ədalət məhkəməsi qarşısında cavab verməli və cəzalandırılmalıdır", - deyə ombudsman bəyanatda qeyd edir.

## XOCALI SOYQIRIMININ 25-Cİ İLDÖNÜMÜNÜN KEÇİRİLMƏSİNƏ DAİR TƏDBİRLƏR PLANI TƏSDİQ EDİLİB




***Azərbaycan Respublikasının Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə "Xocalı soyqırımının iyirmi beşinci ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib.***

Tədbirlər planı Azərbaycan Respublikası Prezidentinin "Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında" 2017-ci il 24 yanvar tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə hazırlanıb.

Tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, ictimaiyyət nümayəndələri tərəfindən Şəhidlər xiyabanının ziyarət edilməsi, Xocalı köçkünlərinin beynəlxalq ictimaiyyətə müraciəti, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərində, nümayəndəliklərində və diaspor təşkilatlarında bu soyqırımı ilə bağlı tədbirlərin (mətbuat konfranslarının, anım mərasimlərinin və s.) təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında, internet şəbəkəsində qanlı qırğını əks etdirən materialların yayılması və mütəmadi olaraq yenilənməsi nəzərdə tutulub.

Sənədə əsasən, ölkədə fəaliyyət göstərən dini konfessiya və qurumlar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım mərasimləri təşkil ediləcək, idarə və təşkilatlarda, teatr-konsert müəssisələrində, sərgi salonlarında, ali və orta məktəblərdə xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, milli azadlıq uğrunda mübarizəyə həsr olunan sənədli və bədii filmlər nümayiş etdiriləcək.

Xocalıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) dövlət qurumları rəhbərlərinin, Milli Məclisin deputatlarının və ziyalıların şəhid ailələri ilə görüşləri təşkil ediləcək.

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq, həmin gün saat 17.00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endiriləcək.



## KEÇƏN AY CEYHAN LİMANINDAN 2 MİLYON TON AZƏRBAYCAN NEFTİ DÜNYA BAZARINA ÇIXARILIB

***2017-ci ilin yanvar ayı ərzində 2 milyon 48 min 786 ton Azərbaycan nefti Ceyhan limanından dünya bazarına çıxarılıb.***

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, bu həcmin 1 milyon 398 min 440 tonunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun nefti təşkil edib.

Ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri (BTC) istismara verilən gündən 2017-ci il fevral ayının 1-dək Ceyhan limanından 321 milyon 883 min 385 ton Azərbaycan nefti dünya bazarlarına yola salınıb.

## BTC KƏMƏRİ İLƏ 2,4 MİLYON TONDAN ÇOX AZƏRBAYCAN NEFTİ NƏQL OLUNUB

***2017-ci ilin yanvar ayı ərzində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri (BTC) vasitəsilə 2 milyon 412 min 263 ton Azərbaycan nefti nəql edilib.***

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, ümumiyyətlə, kəmər istifadəyə verilən gündən 2017-ci il fevral ayının 1-dək BTC-yə 323 milyon 950 min 325 ton neft vurulub.

Bundan başqa, 2017-ci ilin yanvar ayında BTC kəməri ilə 935 min 880 ton Türkmənistan nefti nəql olunub.



## XƏZƏRDƏ İQTİSADİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞİN LAYİHƏSİ MÜZAKİRƏ OLUNUB

***Xəzər dənizi hövzəsi ölkələri arasında ticari-iqtisadi əməkdaşlığa dair sazişin layihəsi Aşqabadda Xəzəryanı dövlətlərin nümayəndələri tərəfindən müzakirə olunub.***



Tədbir Türkmənistan Xarici İşlər Nazirliyi, İqtisadiyyat və İnkişaf Nazirliyi, habelə Türkmənistan Prezidenti yanında Xəzər dənizi məsələləri üzrə dövlət müəssisəsi tərəfindən təşkil edilib. Türkmənistan KİV-ləri xəbər verir ki, Xəzər regionu ölkələrinin müvafiq nazirlik və idarələrinin rəhbərləri və aparıcı mütəxəssislərinin iştirak etdiyi görüşdə Xəzəryanı dövlətlər arasında ticari-iqtisadi əməkdaşlığa dair Türkmənistan tərəfindən hazırlanmış sazişin layihəsi müzakirə edilib.

Belə bir saziş bağlamaq təşəbbüsü 2014-cü ilin sentyabr ayında Həştərxanda Xəzəryanı ölkələrin dövlət başçılarının IV sammitində Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov tərəfindən səslənib.

Türkmənistan tərəfinin fikrincə, bu sənəd Xəzəryanı dövlətlər arasında ticari-iqtisadi əlaqələri şaxələndirməyə və Xəzər regionunun mühüm enerji, sənaye və nəqliyyat-tranzit potensialını reallaşdırmağa imkan verəcək.

Danışıqların gedişində daimi fəaliyyətdə olan Xəzər İqtisadi Forumunun yaradılması məsələsi də müzakirə edilib. Bu forum region ölkələrinin hakimiyyət və işgüzar dairələrinin nümayəndələri üçün səmərəli danışıqlar məkanına çevrilə, habelə regionun investisiya cəlbediciliyinə müsbət təsir göstərə bilər.

# AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN NAİLİYYƏTLƏRİNDƏ YAP ÜZVLƏRİNİN XİDMƏTİ AZ DEYİL

**"Heç kəsə sirr deyil ki, YAP Heydər Əliyevin sayəsində yaranmış, onun şəxsiyyəti ətrafında birləşmişdir. Məhz bu amil YAP-ın təşəkkül tapmasında və inkişafında, ölkənin aparıcı siyasi qüvvəsinə çevrilməsində həlledici rol oynamışdır. YAP-ın gücü nədədir? Mən bu suala qısaca olaraq belə cavab verərdim: YAP-ın gücü, ilk növbədə, onun əvəzsiz lideri Heydər Əliyevdədir. YAP-ın gücü bundadır ki, partiyanın yeritdiyi siyasət xalqın maraqlarına uyğundur. YAP-ın gücü bundadır ki, onun təməlində duran prinsiplər əməli surətdə həyata keçirilir. YAP-ın gücü ondadır ki, Prezidentin və YAP liderinin daxili və xarici siyasətini xalq bəyənir və dəstəkləyir".**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***









***Gəmiçilikdə çalışan və Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları ilə silahlanmış Yeni Azərbaycan Partiyasının üzvü olması ilə qanuni iftixar hissi keçirən 8 işçimiz on iki il əvvəl Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatına "Xəzər dənizçiləri" ərazi ilk təşkilatının yaradılması xahişi ilə müraciət edir və az sonra onların bu arzuları qarşısında "yaşıl işıq" yandırılır. Beləcə yaranır hazırda üzvlərinin sayı səkkiz yüzü keçən Yeni Azərbaycan Partiyası Səbail rayonu "Xəzər dənizçiləri" ərazi ilk təşkilatı.***

Yanvarın 26-da Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin akt zalında Yeni Azərbaycan Partiyası Səbail rayonu "Xəzər dənizçiləri" ərazi ilk təşkilatının hesabat-seçki yığıncağı keçirildi.

"Xəzər dənizçiləri" ərazi ilk təşkilatının sədri İzafət Məmmədov 2015-2016-cı illərdə təşkilatın fəaliyyətinə dair hesabat məruzəsi ilə çıxış etdi. Bildirdi ki, 1992-ci ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanı düşdüyü bütün bəlalardan xilas etmək yolunda atdığı ilk mühüm addımlardan biri Yeni Azərbaycan Partiyasının yaradılması oldu. YAP Azərbaycan dövlətçiliyinin, onun müstəqilliyinin qarantı demək idi. Hava və su insana nə qədər vacibdirsə, o dövrdə HEYDƏR ƏLİYEV – YAP da xalqımıza, müstəqilliyini itirmək təhlükəsi qarşısında olan Azərbaycana o qədər vacib idi. Ulu Öndərin təbirincə desək, "Yeni Azərbaycan Partiyası sübut etdi ki, o, siyasi fəaliyyət göstərməyə, Azərbaycanın taleyüklü məsələlərini həll etməyə qadir partiyadır... Ona görə də Yeni Azərbaycan Partiyası yaşayacaq, inkişaf edəcək, xalqımızı, müstəqil dövlətimizi xoşbəxt gələcəyə aparacaqdır." Zaman dahi rəhbərin sözlərinin doğruluğunu təsdiq etdi. Ümummilli Liderin əsasını qoyduğu daxili və xarici siyasətin Yeni Azərbaycan Partiyasının sədri, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində müstəqil Azərbaycan hazırda dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilib.









Hesabat dövründə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində görülən mühüm işlərdən, qazanılan uğurlardan ətraflı bəhs edən məruzəçi dövlət başçımızın həyata keçirdiyi müasirləşmə siyasətinə dəniz nəqliyyatı sahəsində də böyük dəstək verildiyini bildirdi. Ötən müddətdə təşkilatın sıralarının xüsusilə yüksək bilik və bacarığa, müasir dünyagörüşə malik gənclərin hesabına genişləndiyini, taleyini Gəmiçiliklə bağlayan bu gənclərin YAP-ın üzvü olduqlarını heç vaxt unutmadıqlarını qeyd etdi.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Risklərin idarəedilməsi şöbəsinin rəisi Fuad Hacıəliyev, mütəxəssis Mirkazım Babayev, Azərbaycan Dövlət Dəniz Akademiyasının əməkdaşı Bayram Balakişiyev və başqaları məruzə ilə bağlı müzakirələrdə təşkilatın hesabat dövründəki fəaliyyətini qənaətbəxş qiymətləndirdilər.

İzafət Məmmədova yenidən etimad göstərildi və o, yekdilliklə Yeni Azərbaycan Partiyası Səbail rayonu "Xəzər dənizçiləri" ərazi ilk təşkilatının sədri seçildi.

Sonra 7 nəfərdən ibarət idarə heyəti və YAP Səbail rayon təşkilatının XI konfransına nümayəndələr seçildi.

Yığıncaqda çıxış edən Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı sədrinin müavini Əhliman Qarayev dinamik inkişaf edən ölkəmizin əldə etdiyi yüksək nailiyyətlərdə yarandığı gündən Azərbaycan dövlətinə və xalqına sədaqətlə xidmət edən YAP-ın əhəmiyyətli rolundan bəhs etdi. Partiyanın keçdiyi şanlı yola nəzər salaraq bildirdi ki, YAP keçən əsrin doqsanıncı illərində xalqımızın arzu və istəklərinin ifadəsi kimi yarandı. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının Ümummili Liderimiz Heydər Əliyevə ünvanladığı müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir." Xalqın dahi rəhbərə olan sonsuz inamı isə YAP-ın qısa müddət ərzində təşkilatlanmasına, ölkəmizin bütün regionlarında özəklərini yaratmasına və siyasi səhnədə parlamasına imkan verdi.

Əhliman Qarayev çıxışının sonunda Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin çoxminli kollektivinə və "Xəzər dənizçiləri" ərazi ilk təşkilatının yeni seçilən heyətinə gələcək fəaliyyətlərində uğurlar arzuladı.

***Rasif TAHİROV***

# ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VLADİMİR KAZİMİROVUN ƏYRİ GÜZGÜSÜNDƏ

***Vladimir Kazimirovun "Nezavisimaya qazeta"da dərc edilmiş, ölkəmizə münasibətdə qərəzli mövqedən yazılmış və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini təhrif edən məqalələrinə (sonuncu belə məqalə yanvarın 26-da çap olunub) cavab olaraq həmin qəzetin 2017-ci il 6 fevral tarixli nömrəsində Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Vladimir Kazimirovun əyri güzgüsündə" adlı məqaləsi dərc edilib. Məqaləni təqdim edirik.***

Rusiya mətbuatında vaxtaşırı özünü yada salan keçmiş səfir Vladimir Kazimirov yenə dözməyib və özündən müştəbeh tərzdə ümumi xarakterli öyüd-nəsihət verməyi, eləcə də konkret olaraq Azərbaycanı "haqq yoluna dəvət etməyi" qərara alıb. Həm də o bunu Azərbaycana və bu ölkənin diplomatik xidmətinə münasibətdə elementar etikadan kənar tərzdə edib. İstər-istəməz buna reaksiya verilməli idi, lakin mən oxşar yolla getməyi yersiz hesab etdim və əsas məqamların icmalını daha münasib formada təqdim etməyə üstünlük verdim.

Cənab Kazimirovun inadkarlıqla son on ildə eyni, lakin məzmunca artıq xeyli köhnəlmiş tezislərinin növbəti porsiyasını şərh etməzdən əvvəl Vladimir Nikolayeviçə bir sualım var: əgər siz özünüzü bu qədər yüksək səriştəli hesab edirsinizsə, müvafiq mandatınız olduğu vaxtda – 1996-cı ilə qədər nə üçün bu münaqişənin qəti həllinə nail ola bilmədiniz? Axı nə siz, nə də ATƏT-in Minsk qrupunda sizin varisləriniz hələ bunu edə bilməyib.


НЕЗАВИСИМАЯ
СВЕЖИЕ ПРИЛОЖЕНИЯ: НВО И АНТРАКТ
Война по заявкам Евросоюза
НОВОСТИ | ГАЗЕТА | ПРИЛОЖЕНИЯ | ТЕМЫ | ФОТО | ВИДЕО | БЛОГИ | ФОРУМ | АРХИВ | ТЕГИ
06.02.2017 00:01:00
Об информационных фейках
Армяно-азербайджанский нагорнокарабахский конфликт в кривом зеркале Владимира Казимирова
Хикмет Гаджиев
Об авторе: Хикмет Гаджиев – глава пресс-службы МИД Азербайджана
ПОЛЕМИКА
Периодически напоминающий о себе в российской прессе посол в отставке Владимир Казимиров вновь не удержался и решил давать общие менторские поучения, а заодно еще и «наставить на путь истинный» конкретно Азербайджан. Причем сделано это было в манере, столь далекой от элементарной этики по отношению к Азербайджану и его дипломатической службе, что непроизвольно напрашивалась соответствующая реакция. Однако я не посчитал уместным идти подобным путем и предпочел сделать обзор основных пассажей в более подобающей форме.
Фото пресс-службы президента Азербайджана
Но прежде чем прокомментировать очередную порцию все тех же, уже изрядно устаревших по содержанию тезисов, которые г-н Казимиров с упорством, достойным лучшего применения, озвучивает последние 10 лет, задам Владимиру Николаевичу вопрос: если вы столь высоко компетентны, то почему не смогли выйти на
ХВАТИТ СМОТРЕТЬ. РЕШАЙСЯ!
ДРУГИЕ НОВОСТИ

Əslində siz özünüz də bu faktı inkar etmirsiniz. Üstəlik, bu il yanvarın 26-da "Nezavisimaya qazeta"da dərc olunmuş sonuncu məqalənizin əvvəlində də qeyd edirsiniz ki, münaqişəni dinc yolla həll etmək cəhdləri 20 ildən artıq vaxt alıb. Bunun təqsirkarı kimi, guya vasitəçilərin təşəbbüslərini pozan Azərbaycanı göstərməyə çalışırsınız, sizin fikrinizcə, "hər iki erməni tərəfi" isə Minsk qrupunun təklifləri üzərində işləməyə hazır olduqlarını göstərir. Siz Azərbaycan tərəfin bütün mümkün yollardan, hətta hərbi yoldan da istifadə etməklə öz ərazi bütövlüyünü müdafiə etmək kimi ayrılmaz hüququ barədə bəyanatlarına görə ah-zar edərək, pərdələnməyə çalışırsınız.

Lakin insanları çaşdırmağa çalışmaq yersizdir. Siz, cənab Kazimirov, çox yaxşı bilirsiniz ki, "erməni tərəfləri" anlayışı yoxdur, münaqişənin tərəfləri olan Ermənistan və Azərbaycan, bir də bu münaqişənin həllində maraqlı tərəflər kimi Dağlıq Qarabağın erməni və Azərbaycan icmaları var. Bütün beynəlxalq vasitəçilər məhz bu formatda işləyiblər və yenə bu formatda işləyirlər.

Bundan əlavə, yaxşı olardı ki, siz – hazırda istefada olan keçmiş yüksəkvəzifəli diplomat BMT Nizamnaməsini götürüb bu sənədin dövlətlərin özünümüdafiə hüququ və təcavüzü dəf etmək hüququndan bəhs edilən 51-ci maddəsini nəzərdən keçirəsiniz. Bütün beynəlxalq münasibətlər sisteminin bazası olan bu mühüm sənədi yaddaşınızda təzələmək təhrifləri aradan qaldırmağa kömək etməlidir. Bu təhriflər sizi o dərəcəyə çatdırır ki, deməyinizə görə, təcavüzün qurbanı özü təqsirkardır, təcavüzkar isə az qala "sülh göyərçini"dir.

Sizin sonuncu məqalənizdən belə təsəvvür yarana bilər (hər halda müəllif çox səylə belə təsəvvür yaratmağa çalışır) ki, vasitəçilərin Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsinə dair bütün fəaliyyəti müddətində cəmi iki sanballı sənəd yaranıb və hər iki sənədin "atası" Kazimirovdur. 1994-1995-ci illərdə yaradılmış bütün sənədlər kompleksindən yalnız faks aparatının düyməsini basmaqla iştirak etdiyiniz sənədləri qabartmaq, bütün başqa sənədləri unutmaq, onların barəsində susmaq sizin peşəkar eqoizminizin və ya peşəkar amneziyanızın növbəti təzahürüdür.

Xatırladırıq. Münaqişə tərəfləri arasında atəşkəs haqqında 1994-cü il 5 may tarixli Bişkek protokolunda "ən intensiv iş apararaq ən qısa müddətdə etibarlı, hüquqi öhdəliklər irəli sürülən, hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin bərpa olunmamasını, qoşunların işğal edilmiş ərazilərdən çıxarılmasını, kommunikasiyaların fəaliyyətinin bərpa olunmasını, qaçqınların qaytarılmasını, danışıqlar prosesinin davam etdirilməsini təmin edən mexanizm nəzərdə tutulan sazişlər imzalanması yolu ilə bu protokolun təsbit edilməsi" barədə çağırışlar var. Məlum olduğu kimi, bu razılaşmalar əsasında 1994-cü il mayın 12-də atəşkəs rejimi qüvvəyə minib. 1994-1995-ci illərdə tərəflərin müzakirə etdiyi bütün başqa sənədlərin məqsədi bu razılaşmaları implementasiya etmək olub. Konkret tədbirlər arasında atəşkəs rejiminin qorunub saxlanması (tənzimləmə üçün şərait yaradan texniki məqamlar) və işğalçı qüvvələrin çıxarılması (nizamlamanı təmin edən məzmun aspektləri) də var.

Belə ki, işğal edilmiş ayrı-ayrı ərazilərdə vəziyyətin tənzimlənməsinə dair Tədbirlər Təqvimi haqqında 1995-ci il 5 noyabr tarixli II Əlavədə işğal olunmuş Ağdərə, Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər və Laçın rayonlarının işğaldan azad edilməsinin və minalardan təmizlənməyə başlanmasının zaman çərçivələri birbaşa müəyyən edilib.

İşğal edilmiş ərazilərin dərhal və qeyd-şərtsiz azad edilməsi barədə bu tələblər BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş və yaxşı məlum olduğu kimi, icrası üçün iddia müddəti olmayan dörd qətnaməsinin (822, 853, 874 və 884 nömrəli) müddəalarından irəli gəlirdi. Həmin qətnamələrə görə, BMT Təhlükəsizlik Şurası Azərbaycana qarşı güc tətbiq edilməsini və onun ərazilərinin işğal olunmasını pislədi və eyni zamanda, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü, onun beynəlxalq səviyyədə qəbul edilmiş sərhədlərinin toxunulmazlığını bir daha təsdiqlədi. Təhlükəsizlik Şurası həmin qətnamələrdə bir daha təsdiq etdi ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir.

Bu tələblərin Ermənistan tərəfindən yerinə yetirilməməsini, ehtimal ki, onu beynəlxalq hüquq qaydalarına və dövlətlərin dinc yanaşı yaşaması normalarına hörmət etməyin zəruri olmasına inandıra bilməmiş beynəlxalq vasitəçilərin nöqsanı hesab etmək olar. Nəticədə Azərbaycan torpaqlarının işğalı davam edir və bu, yeganə faktdır ki, siz haqlı olaraq onu təsdiqləyirsiniz. Bu halda təcavüzkara qarşı təsirli beynəlxalq qınaq və onu sülhə məcbur etmək tədbirləri görülmür. Lakin bunun səbəbi təcavüzə məruz qalmış Azərbaycanın "qeyri-konstruktiv mövqeyi" deyil, işğalçı tərəfin bütün beynəlxalq qərarları, o cümlədən BMT Təhlükəsizlik Şurasının imperativ xarakterli qətnamələrini də sabotaj etməsidir.

Sizin sənədli ekvilibristikadan istifadə etməklə təcavüzkara hər vasitə ilə himayəçilik etmək cəhdləriniz vəziyyəti daha da gərginləşdirir, qoşunların təmas xəttində nəzarət tədbirlərindən dəm vurmaqla status-kvonu uzatmağa çalışan Ermənistanın mövqeyini bir növ dəstəkləmək illüziyası yaradır. Hərçənd, tamamilə aşkardır ki, hər hansı insidentlərə yol verməməyin yeganə təsirli və etibarlı üsulu işğalçı Ermənistan qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını təmin etməkdir. Yalnız bu halda hazırda aparılan danışıqlar prosesi çərçivəsində münaqişənin qəti siyasi tənzimlənməsinə doğru irəliləmək mümkün olar.

Siz isə, Vladimir Nikolayeviç, yaxşı olar ki, artıq 20 ildən çox müddətdə heç bir aidiyyətiniz olmayan proses ətrafında informasiya feykləri yaratmayasınız.





# TÜRKİYƏ RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ERKAN ÖZORALLA GÖRÜŞ KEÇİRİLİB

***Azərbaycanla Türkiyə arasında əlaqələrin, dostluq münasibətlərinin tarixi köklərə dayandığını deyən Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov, iki ölkə arasında dəniz nəqliyyatı sahəsində əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğuladı. Prezident İlham Əliyevin qayğısı nəticəsində dəniz nəqliyyatı sahəsində görülən işlər, donanmanın yenilənməsi istiqamətində əldə olunan nailiyyətlər, respublikamızın nəqliyyat dəhlizlərinin inkişafına verdiyi töhfə barədə ətraflı məlumat verildi. Görüşdə, ölkəmizin Birləşmiş Millətlər Təşkilatının nüfuzlu təşkilatı olan Beynəlxalq Dəniz Təşkilatının ali idarəetmə orqanı olan Assambleyasında və adıçəkilən Təşkilatın Alt Komitələrinin sessiyalarında, Şurasına keçirilən seçkilərdə Türkiyə Respublikasına daima yaxından dəstək olduğu qeyd edildi.***

Eyni zamanda "Türk Loydu" təsnifat cəmiyyətinin ölkəmizdə fəaliyyətinin genişləndirməsi üçün münbit şəraitin olduğu, respublikamızda ticarət gəmiçiliyi sahəsinin getdikcə inkişaf etdiyi, bu şəraitdən istifadə edərək gəmilərə texniki nəzarət sahəsində məqsədyönlü tədbirlərin həyata keçirilməsinin zəruriliyi qeyd edildi. Azərbaycan dənizçilərinin təcrübəsi və fəliyyətindən söz açıldı, istər Azərbaycan, istərsə də xarici bayraq altında üzən gəmilərdə təcrübəli azərbaycanlı dənizçilərin olduğu diqqətə çatdırıldı.

Vaxtilə Azərbaycanda çalışdığını qeyd edən Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral, bu dəfəki dönüşündə ölkədə qısa müddətdə inanılmaz inkişafla rastlaşdığını dedi. Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzinin fəaliyyəti ilə yaxından tanış olduğunu diqqətə çatdıran səfir bildirdi ki, ölkədə gedən sürətli inkişaf prosesi bütün sahələrdə olduğu kimi Dövlət Dəniz Administrasiyasının da fəaliyyətində nəzərəçarpacaq şəkildə hiss olunur.

Səfir, həmçinin Dövlət Dəniz Administrasiyası tərəfindən dəniz nəqliyyatı sahəsində həyata keçirilən məqsədyönlü tədbirlərin uğurlu nəticələrinin Azərbaycandan kənarda da hiss edildiyini, bu səbəbdən Respublikamızın dəniz nəqliyyatı sahəsinin təsnifat cəmiyyətləri üçün cəlbedici xarakter daşıdığını, Türkiyə Loydunun da bu təsnifat cəmiyyətləri cərgəsində ön sıralarda olduğunu və Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən bir neçə gəmisinə "Türk Loydu" təsnifat cəmiyyəti tərəfindən texniki nəzarətin həyata keçirildiyini vurğulayaraq, Dövlət Dəniz Administrasiyası tərəfindən Türkiyə Loyduna göstərilən dəstəyə görə təşəkkürünü bildirdi.

Görüşdə Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən 10-a yaxın gəmisinin Qara dənizdə həyata keçirilən yük daşımalarına yaxından cəlb edilməsi və Türkiyə Respublikasına məxsus tərsanələrdə bir neçə gəmimizin inşa edildiyi, habelə bu sahədə gələcəkdə əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulandı.

***Dövlət Dəniz Administrasiyasının mətbuat xidməti***

# "HAZIRDA XƏZƏR HÖVZƏSİNDƏKİ DƏNİZ LİMANLARININ İNKİŞAFI STRATEGİYASI ÜZƏRİNDƏ İŞ GEDİR"



***Həştərxan vilayəti Xəzər Nəqliyyat-Logistika kompleksi layihəsinin hazırlanmasında iştirak etmək üçün RF-nin Şimali Qafqaz Məsələləri üzrə Nazirliyi nəzdində işçi qrupun tərkibinə daxil olacaq.***

Şimali Qafqazın İnkişafı Korporasiyasının (ŞQİK) rəsmi saytı xəbər verir ki, bu barədə RF-nin Şimali Qafqaz Məsələləri üzrə nazirinin birinci müavini, "ŞQİK" Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Odes Baysultanovla Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin görüşündə razılaşma əldə edilib.

O.Baysultanov deyib: "Hazırda Xəzər hövzəsindəki dəniz limanlarının inkişafı strategiyası üzərində iş gedir. Biz həmin strategiyanı Rusiya hökumətinə təqdim etməliyik. Həştərxan vilayətinin bu layihədə iştirak etməsi ölkə üçün çox vacibdir. Həştərxan limanlarının öz üstünlükləri var. Həştərxan həm də Rusiyanın cənub darvazası deməkdir".

A.Jilkin də öz növbəsində, Yaxın Şərqdən, Afrikadan və Cənub-Şərqi Asiyadan olan ticarət tərəfdaşları ilə əməkdaşlığın inkişaf etdirilməsi üçün birgə fəaliyyətin zəruri olduğunu vurğulayıb.

Qubernator deyib: "Biz "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişafına ümid bəsləyirik. Xəzər dənizi boyunca qonşularımızın və Hindistanın fəallaşacağını gözləyirik. Perspektivdə 25-30 milyon ton yük aşırılacağını proqnozlaşdırırıq. Həştərxan limanları təkbaşına bu işin öhdəsindən gələ bilməzlər. Buna görə də Xəzərdəki bütün Rusiya limanlarının fəaliyyətinin ölkə səviyyəsində əlaqələndirilməsi zəruridir".

# GƏMİÇİLƏRƏ NEFTLƏ ÇİRKLƏNMƏDƏN VURULAN ZƏRƏRƏ GÖRƏ MÜLKİ MƏSULİYYƏT BARƏDƏ MƏLUMAT VERİLİB

***Dövlət Dəniz Administrasiyasında Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək" adlı Tvinninq layihəsi çərçivəsində, "Neftlə çirklənmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" 1992-ci il tarixli Beynəlxalq Konvensiya və "Neftlə çirklənmə zamanı dəyən ziyanın kompensasiyası üzrə Beynəlxalq Fondun yaradılması haqqında" Beynəlxalq Konvensiyaya dair seminar keçirilib.***

Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən bildirilib ki, 2015-ci il noyabrın 16-dan həyata keçirilən Tvinninq layihəsi, Azərbaycanda dəniz üzgüçülüyünün təhlükəsizliyi və dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması ilə əlaqədar beynəlxalq konvensiyalarda nəzərdə tutulan məsuliyyət prosedurlarının Avropa İttifaqı qanunvericiliyi ilə əlaqəli şəkildə həyata keçirilməsində və tətbiqi məsələlərində Dövlət Dəniz Administrasiyasının potensialını gücləndirmək məqsədi daşıyır.




"Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək" adlı Tvinninq layihəsi çərçivəsində keçirilən seminarda Dövlət Dəniz Administrasiyasının əməkdaşları ilə yanaşı, dənizçilər, vətəndaş cəmiyyətlərinin, eləcə də, Azərbaycan Yeni Nəsil Hüquqşünaslar Assosiasiyasının nümayəndələri iştirak ediblər.

Tvinninq layihəsi çərçivəsində ölkəmizə dəvət olunan İspaniyalı mütəxəssislər — professor J.L.Gabaldon, kapitan L. Fernandez və R.Pastor tərəfindən "Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" 1992-ci il tarixli Beynəlxalq Konvensiya və "Neftlə çirklənmə zamanı dəyən ziyanın kompensasiyası üzrə Beynəlxalq Fondun yaradılması haqqında" Beynəlxalq Konvensiyaya dair məlumat verilməklə, onların tətbiqi dairəsi, konvensiyalarda nəzərdə tutulmuş əsas anlayışlar, gəmi sahibinin məsuliyyəti, məcburi sığorta halları, neftlə çirklənmə zamanı dəyən ziyanın kompensasiyası üzrə Beynəlxalq Fondun yurisdiksiyası və kompensasiyaların verilməsi qaydaları, icraatın başlanması üzrə tətbiq olunan vaxt məhdudiyyəti və konvensiyalarda əksini tapmış digər məsələlər ətraflı izah edilib, eləcə də "Prestige" neft tankerində baş vermiş qəzaya dair bir sıra praktiki məşğələlər aparılıb.

Seminarın sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

# "TRANZİT DAŞIMALARDAN ƏLDƏ OLUNAN GƏLİRLƏR 5,5 DƏFƏ ARTIRILMALIDIR"



***Transxəzər dəhlizi ilə daşımaların həcminin artırılması ilə əlaqədar Kurık limanının tikintisinin ikinci fazasının icrasına başlanmalıdır.***

Qazaxıstan Respublikası Prezidentinin rəsmi saytı xəbər verir ki, Prezident Nursultan Nazarbayevin Qazaxıstan xalqına "Qazaxıstanın üçüncü dəfə modernləşdirilməsi: qlobal rəqabətədavamlılıq" adlı müraciətində belə deyilir.

Müraciətə görə, yeni Avrasiya logistika infrastrukturunun inkişaf etdirilməsi əsas prioritetlərdən biridir. Sənəddə deyilir: "Hökumətə tranzit daşımaların illik həcmini 2020-ci ilə qədər yüklər üçün 7 dəfə, daşınan konteynerlər üçün təqribən 2 milyon konteyner, hava nəqliyyatı ilə sərnişindaşımaları üçün 4 dəfə - təqribən 1,6 milyon tranzit sərnişin artırmağı təmin etməyi tapşırıram. Tranzit daşımalardan əldə olunan gəlirlər 5,5 dəfə - ildə təqribən 4 milyard dollar artırılmalıdır".

Daha sonra müraciətdə deyilir ki, ölkənin nəqliyyat və tranzit potensialını tam üzə çıxarmaq üçün qonşu ölkələrlə əlaqələndirmə olmalıdır. Yüklərin tranzitinin sərbəstliyi, nəqliyyat dəhlizlərinin yaradılması və modernləşdirilməsi təmin edilməlidir. Nəqliyyat infrastrukturunun idarə olunmasına, xidmət səviyyəsinin artırılmasına və inzibati maneələrin aradan qaldırılmasına xüsusi diqqət yetirilməlidir. Transxəzər dəhlizi ilə daşımaların həcmini artırmaq üçün Kurık limanının tikintisinin ikinci fazasının – avtomobil keçidinin reallaşdırılmasına başlamaq lazımdır.

# ÜZƏN EMALATXANANIN TƏMİRİ YEKUNLAŞMAQ ÜZRƏDİR

***"Bibiheybət" Gəmi Təmiri Zavodunda tərsanəyə qaldırılan emalatxananın sualtı və suüstü hissələri, üst tikililəri təmizlənərək rənglənib, dam örtüyü, gövdədə olan qoruyucu tirlər yenilənib, istehsalat sahələrindəki bütün dəzgahlar təmir olunub, istilik və şirin su sistemləri dəyişdirilib. Bundan başqa, üzən emalatxanada hər biri 17 kubmetr həcmə malik su və fekal çənlər, 20 yerlik telefon stansiyası quraşdırılır, sanitariya sistemi yenisi ilə əvəz edilir.Heyət və komanda işçilərinin yüksək keyfiyyətlə təmir edilən otaqlarında yeni mebellər quraşdırılır. Bütün sahələrdə təmizləmə və rəngləmə işləri görülür.***









Təmir başa çatdıqdan sonra üzən emalatxana yedək gəmisi ilə Ələtə - yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanına aparılacaq. Müasir standartlara cavab verəcək üzən emalatxanada gəmilərin təmiri ilə bağlı bütün xidmətlər göstəriləcək.

Xatırladaq ki, bu qurğu Xəzərin ən böyük yükaşırma müəssisəsinə yan alacaq gəmilərə operativ xidmət göstərməyə imkan verəcək. Bununla da gəmilərin səfərlərarası cari təmirində vaxt itkisi aradan qaldırılacaq. Əvvəllər gəmilərin "Bibiheybət" və "Zığ" gəmi təmiri zavodlarında həyata keçirilən cari təmir işləri bundan sonra yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanında gerçəkləşdiriləcək.



# NEFTÇALADAKI NƏRƏ BALIQARTIRMA ZAVODU İNDİYƏDƏK XƏZƏR DƏNİZİNƏ 45 MİLYONDAN ÇOX NƏRƏ KÖRPƏSİ BURAXIB



***Neftçaladakı Xıllı Nərə Balıqartırma Zavodu hər il Kür çayı vasitəsilə Xəzər dənizinə 5 milyon nərə körpəsi köçürür. Zavod fəaliyyət göstərdiyi 2003-cü ildən bəri, ümumilikdə, 45 milyondan çox müxtəlif növ nərə cinsli balıq körpəsi yetişdirərək dənizə buraxıb. Balıqartırma zavodu əsasən, nərə cinsli balıqların dörd növünün - bölgə, nərə, kələmo və uzunburun balıqlarının süni yolla artırılması ilə məşğul olur.***

Yaz-yay balıqartırma mövsümündə yetişdirilən nərə cinsli balıq körpələrinin bir qismi zavod şəraitində yetişdirilərək 80-150 qrama çatdırıldıqdan sonra Kür çayının mənsəbinə buraxılır. Son illərin təcrübəsi göstərir ki, ənənəvi normal çəkidən daha yüksək çəkidə körpələrin təbii ərazilərə buraxılması daha effektli olur və onların açıq dənizdə yaşama ehtimalı xeyli yüksəlir. Bunu nəzərə alaraq, zavodun istehsalat infrastrukturunda müvafiq dəyişikliklərin edilməsi və istehsal olunan yüksək çəkiyə malik nərə cinsli körpə balıqların sayının bir neçə dəfə artırılması nəzərdə tutulub.

Zavodun direktor əvəzi Kamal Bayramov AZƏRTAC-a bildirib ki, 2013-cü ildə Azərbaycanda balıqartırma tarixində ilk dəfə olaraq süni yolla kürü yetişdirilib. Kürüdən-kürüyə prinsipi qorunaraq zavodda saxlanılan və təmir-törədici fondunun tərkibinə daxil edilən törədici balıqlardan cinsi məhsullar alınıb. Təmir-törədici fondu yaradılması məqsədilə Xıllı Nərə Balıqartırma Zavodunda 2004-cü ildən elmi-praktiki eksperimentlər keçirilir. Hazırda zavod şəraitində süni yolla alınmış 5500-dən çox nərə cinsli balıqlar saxlanılır.

Qeyd edək ki, zavod Xəzəryanı ölkələr sırasında nərə körpələrinin Xəzərə buraxılması sahəsində Rusiya və İrandan sonra üçüncü yerdədir.

# BƏZİ ÇAYLAR TƏMİZ SU SİNFİNƏ AİD EDİLİB

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti 2016-cı il ərzində 58 müşahidə məntəqəsində 42 su obyektinin (27 çay, 4 su anbarı, 10 göl və 1 liman) monitorinqini həyata keçirib.***

Departamentdən verilən məlumata görə, detergentlər, neft məhsulları, fenollar, üzvi oksidləşdiricilər, xlorüzvi pestisidlər, ağır metallar, suyun mineral tərkibi üzrə ötən il ərzində götürülmüş 427 su nümunəsi üzərində 8466 analiz aparılıb. Su nümunələri üzərində aparılmış analizlərin nəticələrinə əsasən məlum olub ki, əksər su obyektlərində bəzi göstəricilər üzrə konsentrasiyalar yol verilən qatılıq həddini (YVQH) keçib.

Kür-Araz ovalığı: Kür çayı suyunun keyfiyyəti əsasən yuxarı və aşağı axınlarında pisləşir. Bunun səbəbi yuxarı axında Gürcüstan ərazisindən axıdılan transsərhəd çirkləndiriciləri, aşağı axında isə Araz çayının tökülməsi və çay boyunca yerləşən yaşayış məntəqələrindən, xüsusən də Şirvan və Salyan şəhərlərindən axıdılan sənaye və məişət çirkab sularıdır. Bu ərazidə suyun keyfiyyəti mülayim çirklənmiş su sinfinə aiddir. Aşağı axında Zərdab və Surra məntəqələrində nisbətən zəif çirklənmə səviyyəsi müşahidə olunur. Bu da həmin məntəqələr boyunca qeyd edilən ərazidə çaya axıdılan çirkləndiricilərin miqdarının azalması ilə bağlı olub.



Böyük Qafqazın cənub yamaclarından axan çaylar: Bu bölgənin çayları əsasən kənd təsərrüfatı çirkab suları ilə çirklənməyə məruz qalsa da, il ərzində Qanıx çayında Əyriçayın mənbəyindən 1,7 kilometr aşağıda, Balakənçay, Talaçay, Əyriçay, Katexçay, Dəmiraparançay, Kürmükçay, Göyçay, Türyançay və Qarasu çaylarında özünütəmizləmə aktiv olduğundan çox zəif çirklənmə səviyyəsi müşahidə edilib. Bu çayların suyu təmiz su sinfinə aid olub.

Böyük Qafqazın şimal-şərq yamaclarından axan çaylar: Qusarçay (Quzun kəndi ərazisində), Qudyalçay, Qaraçay, Vəlvələçay (Təngəaltı kəndi ərazisində) çaylarının çirklənmə səviyyəsi çox zəif olub. Bu çaylar təmiz su sinfinə aid edilib.

Kiçik Qafqaz regionunun çayları: Bu regionun çayları Ağstafaçay, Qabırrı çayı, Tovuzçay, Şəmkirçay, Kürəkçay çayları (Qoşqarçay istisna olmaqla) mülayim çirklənməyə məruz qalıb. Qoşqarçayın çirklənməsində isə Daşkəsən şəhərinin kommunal-təsərrüfat, məişət çirkab suları və zəylik alunit–filiz kombinatının, Daşkəsən filiz zənginləşdirmə kombinatının tullantı suları böyük rol oynadığından bu çay çirklənmiş su sinfinə aid edilib. Ağstafaçayda aparılan müşahidələr göstərib ki, Qazax şəhəri ərazisində çayın çirklənmə səviyyəsi mülayim çirklənmiş su sinfinə aiddir.

Lənkəran - Astara zonasının çayları- İstisu çayı və Viləşçay mülayim çirklənmiş, Təngərud və Lənkərançay isə təmiz su sinfinə aid edilib.

# DƏNİZDƏ İNSAN HƏYATININ MÜHAFİZƏSİ ÜZRƏ TƏLİM KURSLARI KEÇİRİLİB





***SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin Dənizdə insan həyatının mühafizəsi üzrə təlim mərkəzində "Dəniz Neft-Qaz Sənayesi üzrə Təlim Təşkilatı"nın (OPITO) standartlarının tələblərinə uyğun olaraq, şirkətin əməkdaşları üçün "Dənizdə təhlükəsizlik texnikasının əsasları və fövqəladə hallar şəraitində hazırlıq" (BOSIET) üzrə təlim kursu keçirilib.***

Şirkətin mətbuat xidmətindən bildirilib ki, kurs ərzində dinləyicilərə dənizdəki neft və qaz qurğuları ilə bağlı spesifik ümumi təhlükələr barədə məlumat verilib. Həmin təhlükələr üzrə potensial riskləri müəyyənləşdirmək, onların aradan qaldırılmasına və ya azaldılmasına nəzarət etmək sahəsində bacarıqlar aşılanıb. Dinləyicilər dənizdə əsas təhlükəsizlik texnikası qaydalarını və əməyin mühafizəsinin idarə edilməsinə dair ilkin konsepsiyaları öyrənib, texniki təhlükəsizlik avadanlıqlarından istifadə bacarığına yiyələniblər.

Kurslarda vertolyotla bağlı fövqəladə hallara hazırlıq və suya məcburi eniş edən vertolyotun tərk edilməsinə aid prosedurlar, dənizdə sağqalma və ilk tibbi yardım texnikaları, ilkin yanğınsöndürmə avadanlıqlarından, həmçinin görmə qabiliyyəti aşağı olan vəziyyətlərdə, o cümlədən tüstü ilə dolmuş ərazilərdə özünüxilasetmə texnikasından istifadə qaydaları nümayiş etdirilib.

# İÇMƏLİ SULARIN TEXNİKİ MƏQSƏDLƏRLƏ İSTİFADƏSİ YOLVERİLMƏZDİR

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mikrobiologiya İnstitutu ölkə ərazisinə məxsus təbii biotoplarda yayılan mikroorqanizmlərin (torpaqda, suda) ekoloji, fizioloji, biokimyəvi və biotexnoloji aspektləri probleminin tədqiqi ilə məşğuldur. Başqa sözlə desək, uzun illər ekoloji sabitliyinə lazımi qayğı göstərilməyən (xüsusən keçmiş sovet dövründə) torpaqlarımızın, su mənbələrimizin müasir ekoloji vəziyyətinin müəyyənləşdirilməsi, qorunması, sağlamlaşdırılırması yollarının araşdırılması institutun əsas qayələrindəndir. Sularımız – çaylar, göllər, bulaqlar, su anbarları, termal-mineral qaynaqlar, o cümlədən Xəzər dənizi ekosistemlərinin fundamental tədqiqi son 55 ildə davam etdirilsə də, aparılan monitorinqyönümlü işlərə yeni məqsədlər əlavə olunub. Bu da ondan ibarətdir ki,



yerli su mənbələrinin ümumi sanitar-gigiyenik baxımdan qorunmasını əlaqədar qurumlarla birgə həyata keçirmək və ən başlıcası, hər bölgədə məişətdə içmək üçün yararlı olan alternativ mənbələri müəyyənləşdirməkdir. Məsələn, Lənkəran təbii vilayətində 10-12, sututumu böyük olan çayların müqayisəli tədqiqi sayəsində iki çay daha əlverişli sayılıb. Eyni məqsədlə də Balakən rayonu üçün Sıltıqçay bulaqları (üç dəyişməz debitli), Ağstafa rayonunda Salovlu bulağı məqsədəuyğun qiymətləndirilir.

Bunu AZƏRTAC-a Mikrobiologiya İnstitutunun direktoru, akademik Məmməd Salmanov bildirib.

Alim qeyd edib ki, hələ keçən əsrin 60-cı illərində Azərbaycanın qərb bölgəsindəki şirin su mənbələrinin tədqiqi zamanı, qonşu dövlətlərin ərazisi, yerli təsərrüfat, sənaye sahələri ilə əlaqəsi olmayan Şəmkirçay öz təmizliyi ilə diqqətimizi cəlb edib. Ona görə də, Gəncə, Göygöl, Şəmkir, Tovuz və başqa yaşayış məntəqələrində əhalini təmiz su ilə təmin etmək üçün Şəmkirçay olduqca qiymətli mənbə sayılıb. 2014-cü ildə Şəmkirçay su anbarı yaradılıb. Öz ekoloji vəziyyətinə, yerləşdiyi ərazinin geomorfoloji və başqa hidroloji xüsusiyyətlərinə görə Azərbaycanda yaradılan su anbarları içərisində bu su tutumu olduqca təmiz və safdır. Bəndlə kəsiləndən sonra öz həcminə, hidroqrafik qurumuna görə Şəmkirçay suyu dağlarla əhatə olunan dərələrdə yavaşayıb daha da durulur, şəffaflaşır və kənar kimyəvi, fiziki təmizlənmə tədbirləri, reagentlər işlətmədən məişətdə istifadə oluna bilər. Ona görə qərb bölgəsində belə qiymətli suların texniki məqsədlərlə istifadəsi yolverilməzdir. Yaxşı olar ki, belə su mənbələri içmək üçün nəzərdə tutulsun, suvarmada isə əsas etibarilə Kür suyundan istifadə edilsin.

# ELMİ-TƏDQİQAT MƏQSƏDLƏRİ ÜÇÜN 2 TON NƏRƏ CİNSLİ BALIQLARIN OVLANMASINA İCAZƏ VERİLİB

***Ötən il ərzində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamenti tərəfindən balıqçılıq haqqında Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq 9 hüquqi və 146 fiziki şəxsə balıq ehiyatlarından sənaye məqsədi ilə istifadə etmək hüququ verilib.***

Departamentdən verilən məlumata görə, bu məqsədlə 317 ton kilkə, 115,3 ton siyənək və 364.65 ton axçalı balıqların ovuna kvotalar ayrılıb. Nərə balıqartırma zavodlarının törədici balıqlarla təmin edilməsi məqsədilə 2.1 ton nərə cinsli, çəkikimi balıqların artırılması ilə məşğul olan zavodlar tərəfindən törədici balıqların tədarükü və hipofiz hazırlanması (törədici balıqların cinsi yetişkənliyə çatmasını sürətləndirmək) məqsədilə 7,7 ton çəkikimilərin ovuna kvotalar ayrılıb.

Elmi-tədqiqat məqsədləri üçün 2 ton nərə cinsli balıq növlərinin ovlanmasına icazə verilib.

Ötən il departament tərəfindən müstəqil və su nəqliyyatında polis idarəsinin əməkdaşlarının iştirakı ilə 246 qanun pozuntusu aşkar edilib.




103 nəfər şəxs inzibati və cinayət məsuliyyətinə cəlb edilərək barələrində 92 protokol və 154 akt tərtib edilib. Bioloji resurslara vurulmuş ziyanla bağlı 40667 manat məbləğində iddia, 5700 manat məbləğində cərimə tərtib edilib.

Tədbir görülməsi üçün rayon məhkəmələrinə 3, hüquq-mühafizə orqanlarına isə 86 iş göndərilib. 4 işə inzibati qaydada departament tərəfindən baxılıb.



# KÖPƏKBALIĞININ YENİ NÖVÜ AŞKAR EDİLİB

***Amerikalı zooloqlar Karib dənizində çəkicbaş köpəkbalığının yeni növünü aşkar edib və onun DNT analizini aparıblar.***

TASS-ın verdiyi xəbərə görə, məlum olub ki, Karib dənizindəki çəkicbaş köpəkbalığı bir neçə milyon il əvvəl Şimali Amerika yaxınlığındakı sularda eyni növdən olan balıqlardan ayrılıb və onlarla cütləşmək əlaqəsini kəsib.

Florida Universitetinin mətbuat xidmətinin yaydığı məlumata görə, DNT testi üçün bioloji material verən balıq 2016-cı ildə Belizdə (əvvəlki Britaniya Hondurası) köpəkbalıqlarını nişanlamaq ekspedisiyası çərçivəsində tutulub. Balıq ABŞ sahillərində Atlantik sularında yaşayan eyni növə zahirən oxşasa da genetik cəhətdən ondan fərqlənir.

Florida Universitetinin press-relizində yazılıb: "İki qrup arasında cütləşmənin kəsilməsi bir növün bölünməsini müəyyənləşdirən əlamətdir. Nyu-York ştatının Stouni-Bruk Universitetindən Endryu Fildsin apardığı DNT analizi nəticəsində Belizdə işləyən komanda sübut edib ki, bu ərazidəki çəkicbaş köpəkbalığı Meksika, ABŞ və Baham adalarında eyni növlə cütləşmə əlaqəsini çoxdan kəsib. Bu müddətdə iki qrupu ayıran genetik fərqlər formalaşıb".

Ekoloji tədqiqatlarla paralel olaraq yeni köpəkbalığının qeydiyyata alınması və ona latınca ad verilməsi işi də aparılır.

# YAXIN 20 İL ÜÇÜN ƏLVERİŞLİ HAVA XƏRİTƏSİ TƏRTİB OLUNUB




***ABŞ-ın Prinston Universitetinin və Milli Okean və Atmosfer Tədqiqatları İdarəsinin alimləri iqlim dəyişməsinin planetimizdə mülayim isti havanın olduğu günlərin tezliyinə və paylanmasına necə təsir göstərdiyini ilk dəfə qlobal şəkildə təhlil ediblər.***

"gismeteo.ru" saytı xəbər verir ki, tədqiqatçılar aşağıdakı parametrlərin - Selsi ilə 18-30 dərəcə istinin, 1 millimetrdən az yağıntının cəminin və Selsi ilə 20 dərəcədən aşağı şeh nöqtəsinin qiymətinin məcmusunu isti hava kimi götürüblər.

İldə 74 günə bərabər olan cari qlobal orta göstərici sonrakı 20 il ərzində 4 gün, əsrin sonu üçün isə 6 gün azalacaq. Lakin orta enliklərdə - ABŞ-ın şimal və dağlıq hissələrində, Britaniya adaları və Şimali Avropada, Asiyanın şimal-şərqində, həmçinin Cənubi Amerika və Okeaniyanın cənubunda yaşayan əhali xüsusən bahar, yay və payızda isti hava şəraitinin 10-15 gün çoxaldığını müşahidə edəcəklər.

İsti günlərin sayı tropik regionlarda daha çox azalacaq. Metamorfozlar Afrika, Asiya və Latın Amerikasında daha çox nəzərə çarpacaq. 2100-cü il üçün bu regionların bəzilərində isti günlərin sayı 15-50 gün azalacaq. Soyuq düşməyəcək, əksinə daha isti və quraq olacaq.

Mülayim hava ekstremal hava şəraiti ilə müqayisədə insanların çoxuna təsir göstərdiyi üçün tədqiqat iqlimin dəyişməsi problemini cəmiyyətə başa düşülən şəkildə çatdırır. Turizm, inşaat, nəqliyyat və kənd təsərrüfatı sahələri tədqiqatçıların mülayim kimi müəyyənləşdirdiyi havanın hakim olduğu günlərin tezliyindən asılıdır.

İlk baxışda isti günlərin sayının çoxalması əla xəbər təsiri bağışlayır. Amma bu hal temperaturun artmasının nəticəsi olacaq, quraqlıq və istilik axınları gətirəcək.

Yer iqliminin gələcəyi barədə bütün proqnozlar 1986-cı ildən 2005-ci ilə qədər müddətdə mülayim hava şəraiti olan günlərin illik sayı ilə bağlı sənədləşdirilmiş dəyişikliklərə əsaslanıb.

# ÇAYIN DONMASI YÜK GƏMİLƏRİNİN HƏRƏKƏTİNİ İFLİC EDİB

***Dunay çayının üzərinin buz bağlaması nəticəsində çayın Rumıniya tərəfində iki yük gəmisi hərəkətsiz qalıb. Gəmilərin heyəti donun əriməsini gözləyirlər.***



Rumıniya xilasediciləri helikopterlər vasitəsilə gəmiləri ərzaq və əsas əşyalarla təmin edirlər.

# CƏNUBİ ÇİN DƏNİZİNDƏ MALAYZİYA GƏMİSİ BATIB



***Cənubi Çin dənizində Borneo adası sahilləri yaxınlığında Malayziya gəmisi batıb. Gəminin göyərtəsində 28 çinli turist və 3 heyət üzvü olub.***

Sinxua agentliyi xəbər verir ki, 27 nəfər xilas edilib. Dörd nəfərin axtarışları davam edir.

Qeyd edək ki, Malayziya gəmisi Kota Kinabal şəhərindən Menqalum adasına hərəkət edirdi.

# ARALIQ DƏNİZİNDƏ MİNƏ YAXIN MİQRANT XİLAS EDİLİB

***Aralıq dənizində Afrikadan Avropa sahillərinə çıxmaq istəyən minə yaxın miqrant xilas edilib. Bu barədə İtaliyanın sahil mühafizəsi xidməti məlumat yayıb.***



Axtarış-xilasetmə əməliyyatlarında gəmilər və katerlər iştirak edib. Miqrantlar arasında ölən olmayıb.

# ARAL DƏNİZİ ZONASINDA EKOLOJİ FƏLAKƏTİN ARADAN QALDIRILMASINA 2,6 MİLYARD DOLLAR AYRILIB

***Özbəkistan Hökuməti 2017-2021-ci illərdə Aral dənizi zonasında ekoloji fəlakətin aradan qaldırılmasına 8,4 trilyon sum (2,6 milyard dollar) vəsait ayırıb.***



Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin imzaladığı Fərmanda Aral dənizinin quruması ilə əlaqədar səhralaşmanın qarşısının alınması, su ehtiyatlarının tənzimlənməsi istiqamətində əsaslı işlərin aparılması, regionda 100 min yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Bildirilir ki, proqramın maliyyələşdirilməsi üçün Özbəkistan Maliyyə Nazirliyinin nəzdində Aralyanı Regionun İnkişaf Fondu da yaradılacaq.

Xatırladırıq ki, Aral dənizi 1960-cı ildə dünyada sahəsinə görə dördüncü göl sayılırdı. Son 40 ildə gölün sahəsi iki dəfə azalıb, suyun həcmi 18 metr aşağı düşüb. Duzluluğu artdığına görə balıq ehtiyatları tamamilə tükənib. Güclü külək qumu sovurub hətta uzaq yaşayış məntəqələrinə tökür və beləcə ekoloji fəlakət zonası yaranır.

*Qulu Kəngərli*

# SUYUN KEYFİYYƏTİ İNSANIN ƏQLİ QABİLİYYƏTİNƏ TƏSİR EDİR



***San-Dieqoda elmi-tədqiqat laboratoriyasının alimləri bildiriblər ki, su və onun keyfiyyəti insanın intellektinə təsir edir. Yalnız təmiz su təfəkkür prosesini fəallaşdıra bilər.***

"Aktualnıye novosti" saytı xəbər verir ki, amerikalı alimlər kişi cinsindən onlarla könüllünün iştirak etdiyi irimiqyaslı tədqiqat aparıblar. Onlar uzun müddət hər gün səhər yeməyindən sonra yarım stəkan su içiblər. Bu qrupun və səhər yeməyindən sonra su içməyən könüllülərin əqli qabiliyyətinin nəticələri fərqli olub.

Tədqiqat müəlliflərinin fikrincə, su insan beyninin müəyyən reseptorlarına təsir etməklə orqanizmin enerji ehtiyatını yüksəldə bilir. Alimlər, həmçinin qeyd edirlər ki, effektiv nəticə üçün bir neçə qurtum təmiz suyu müəyyən edilmiş vaxtda, məsələn, səhər yeməyindən sonra içmək kifayətdir.

# OKEANLARDA SUYUN SƏVİYYƏSİNİN YÜKSƏLMƏSİ DAŞQINLARA SƏBƏB OLACAQ



***ABŞ və İrlandiya alimləri okeanlarda suyun səviyyəsinin yüksələcəyini və daşqınların olacağını proqnozlaşdırırlar.***

"İzvestiya" qəzetinin saytının verdiyi xəbərə görə, mütəxəssislər daşqınların bir neçə yüz ildən sonra baş verəcəyini ehtimal edirlər. Onların fikrincə, bu, temperaturun dəyişməsi və buzlaqların əriməsi ilə bağlıdır. Təqribən 125 min il əvvəl havanın temperaturu indiki dövrlə müqayisədə Selsi ilə 1,5-2 dərəcə, suyun səviyyəsi isə 8-10 metr çox olub. Qlobal istiləşmə nəticəsində Yer üzü XXI əsrin ortalarında belə bir göstəriciyə çatacaq. Mütəxəssislər hesab edirlər ki, təhlükə əsasən sahillərdə yaşayan sakinləri hədələyir.

Alimlər, həmçinin dünyada tufanın baş verəcəyi tarixi də açıqlayıblar. Onların fikrincə, bu, bir neçə əsr sonra ola bilər. NASA alimləri əvvəllər həmin tufanın bu yüzillikdə olacağını proqnozlaşdırmışdılar.

# GÖYGÖLƏ GƏL, GÖYGÖLƏ...





***Göygöl Milli Parkında mühafizə tədbirlərinin gücləndirilməsi, təbiətə yad təsirlərin aradan qaldırılması ərazidə qida bolluğu yaradıb ki, bu da müxtəlif heyvan və quş növlərinin sayında artıma səbəb olub.***

Bu barədə AZƏRTAC-a müsahibəsində Göygöl Milli Parkının elmi işçisi Fuad Quliyev məlumat verib.

Ərazidə Azərbaycan təbiətinin ən nadir fauna və flora növlərinin yayıldığını deyən elmi işçi bildirib ki, hazırda Göygöl Milli Parkında 80-i nadir ağac və kol bitkisi olmaqla 423 adda flora növü qorunur. Həmçinin Milli Parkda tibbi əhəmiyyətli zəli və 100 adda dərman bitkisi də mühafizə edilir.

Fuad Quliyev qeyd edib ki, 1925-ci ildə ölkəmizdə ilk dəfə təbiəti mühafizə zonası olan Göygöl Dövlət Təbiət Qoruğu yaradılıb. 2008-ci ildən isə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Göygöl Milli Parkı təşkil edilib. Bununla da dövlət tərəfindən xüsusi mühafizə olunan Göygöl Milli Parkının ərazisi 6 min 739 hektardan 12 min 755 hektara qədər genişləndirilib.

F.Quliyev vurğulayıb ki, yüksəklik fərqi dəniz səviyyəsindən 1100-3724 metr arasında dəyişən milli park ərazisində yalnız ölkəmizin təbiətinə xas bitki nümunələri deyil, həm də fauna növləri - Qafqaz maralı, ceyran, cüyür, dağ keçisi, qonur ayı, canavar, tülkü, vaşaq, meşə pişiyi, porsuq, samur, dovşan, dələ, göllərdə qırmızı xallı balıq, eləcə də Xəzər uları, tetra, qara kərkəs, kəklik kimi quşlar mühafizə olunur.

## BƏZİ HEYVANLAR İNSANLARI MÜALİCƏ ETMƏYƏ QADİRDİR



***Bioloqlar müəyyən ediblər ki, bəzi heyvanlar həqiqətən də insanları müalicə etməyə qadirdir.***

"mir24.tv" saytı xəbər verir ki, şəfa verən beş heyvan sırasına at, pişik, it, ilan və arı daxildir. Tədqiqatçılar heyvanat aləminin bu nümayəndələrinin hansı sahədə daha bacarıqlı olduğunu aydınlaşdıra biliblər.

Məsələn, atlar dayaq-hərəkət aparatı xəstəliklərini müalicə edir, travma və yaralanmadan sonra bərpa prosesinə yardımçı olur. Atlar alkoqol və narkotik asılılığına qarşı mübarizə aparanlar üçün də ideal seçimdir.

İtlər ürək-damar sistemini gücləndirir, qısa müddətdə depressiyadan çıxmağa kömək edir. Bu heyvanlar öz sahiblərində xərçəng şişlərini erkən mərhələdə üzə çıxarır. Pişiklər isə sahiblərini nevroz və depressiyadan müalicə edir.

Arılar insana çıxıqlar və radikulit zamanı kömək edir. Müalicəni bu həşəratların istehsal etdiyi bal və propolis təmin edir. İlan zəhəri də çox xeyirlidir. Onu damar və oynaqların müalicəsində istifadə olunan bəzi gellərə və losyonlara əlavə edirlər.

## DOST BİR OLAR, YA İKİ...

***Hər bir adamın dostları var, lakin onlardan bir neçəsi ailənin həqiqi üzvünə çevrilir. Alimlərin fikrincə, sözün hərfi mənasında bizim "qohumlarımız" məhz ona görə bu dərəcədə yaxındırlar ki, həqiqi dostların DNT-si kifayət qədər bir-birinə oxşardır.***




"svopi.ru" saytı xəbər verir ki, Kaliforniyada Ceyms Faulerin başçılığı altında mütəxəssislər tərəfindən adamlar arasında yaxın dostluğun əsas səbəbləri tədqiq olunub. Eksperiment zamanı ABŞ-ın kiçik şəhərlərindən birində yaşayan iki mindən çox adamın genetik kod məlumatlarından istifadə edilib.

Alimlər könüllülərin genlərində 500 min birhərfli markerləri tədqiq ediblər. Aşkar edilib ki, ən yaxın dostlarda DNT 0,1 faiz eynidir. Buradan belə çıxır ki, biz öz dostlarımızla 0,1 faiz eyniyik. Bu cür oxşarlıq olduqca kiçik görünə bilər. Lakin yaxın qohumların DNT oxşarlığını müqayisə etməklə görmək olar ki, onlarda da DNT 0,1 faiz oxşardır.

Ceymsin fikrincə, bu cür göstəricilərə görə adamda belə fikir yaranır ki, tədqiqata cəlb edilənlərin ulu nənə və babaları eynidir. Daha bir maraqlı fakt ondan ibarətdir ki, yaxın dostların çox vaxt eyni iydən xoşları gəlir. Onların yemək, rəng və s. seçimində də ümumi cəhətləri çoxdur.

# YUXUNUZ ŞİRİN DEYİLSƏ...

***Yuxusuzluq və ya yuxunun pozulması, demək olar, hər kəsin qarşılaşdığı problemdir. Bu, təkcə yuxu çatışmazlığı deyil, həm də yaxşı yatmamaq, yuxuya getməyin çətinliyi, yuxudan yarımçıq durmaq və səhərədək oyaq qalmaq kimi hallarla səciyyələnir.***

"Zdorovye" saytının məlumatına görə, insanın əlverişsiz şəraitdə (səs-küy, isti/soyuq, həddən artıq bərk və ya yumşaq çarpayı) yatması, həyat tərzini dəyişməsi (səyahət, bir yerdən başqa yerə köçmək), evdə və işdə stress vəziyyət, müxtəlif ağrılar yaradan, tənəffüsü çətinləşdirən və digər xəstəliklər, narahatlıq və depressiya yuxusuzluğun səbəblərindəndir.

Yuxusuzluğun təkrarlanan epizodları və ya insanın yata bilmədiyi vaxtın uzanması, depressiya ilə bağlı yuxusuzluq və ya problemin öhdəsindən müstəqil gələ bilməmək hallarında həkimə və ya mütəxəssisə müraciət etmək lazım gəlir.

Yeni yuxu və oyaqqalma rejimini yaradın. Aşağıda qeyd edilən məsləhətlərə əməl olunduğu halda yaxşılaşma olmasa, həkimə müraciət etmək lazımdır:

- axşamlar alkoqol qəbul etməyin. Alkoqolun orqanizmə qısamüddətli sakitləşdirici təsir etməsinə və spirtli içkidən sonra insanın daha tez yuxuya getməsinə baxmayaraq, alkoqol dərin yuxu fazasına da təsir edir. Siz spirtli içkinin təsiri qurtarandan sonra dərhal ayılacaqsınız.

- xüsusilə yataqda siqaret çəkməyin. Nikotin stimullaşdırıcı təsirə malikdir. Bu sizə yuxuya getməyə və normal yuxu prosesinə mane olur.

- qəhvə içməyin və ya onu daha az içməyə cəhd edin. Kofein orqanizmdə 12-24 saat ərzində qalır. Yadda saxlayın ki, qəhvə ilə yanaşı, şokolad, kola və çayın da tərkibində kofein var. Əgər siz yuxusuzluğunuzun səbəbini kofeində görürsünüzsə, tərkibində bu maddənin olduğu məhsullardan yatmazdan ən azı 12 saat əvvəl istifadə edin.



- nəzərə almaq lazımdır ki, bəzi dərmanlar yuxunun normal strukturunu pozur. Soyuqdəymədə istifadə edilən, bir çox reseptsiz satılan, habelə tərkibində psevdoefedrin olan dərman vasitələri də orqanizmə kofein kimi stimullaşdırıcı təsir göstərir. Ona görə də aptekdə əczaçıdan bu preparatın yuxuya necə təsir göstərməsini, əgər bu dərman insanı oyaq saxlayırsa, onu digəri ilə əvəz etməyin mümkün olub-olmamasını soruşmaq lazımdır.

- yatmazdan əvvəl həddindən artıq yeməyin. Dolu mədə yuxuya getməyə mane olur. Yaxşısı yüngül qəlyanaltı ilə keçinməkdir. Bu, həm yuxunu pozmur, həm də aclığı dəf edir. Çoxları isti və ya soyuq südün möcüzəli gücünə qeyd-şərtsiz inanırlar. Südə bir qədər bal, darçın və ya vanil əlavə etmək olar. Bəzi adamlara tərkibində kofein olmayan bir fincan bitki çayı yaxşı təsir göstərir.

- vannanı yuxudan bir-iki saat əvvəl qəbul edin. Bu, əzələlərdə gərginliyi götürəcək və sizin yuxunuz gələcək. Lakin vannanı bilavasitə yatağa uzanmamışdan qabaq qəbul etməyin, bu, sizi yuxuya getməyə qoymayacaq.

- müntəzəm olaraq idman edin. Bununla siz gərginliyi aradan qaldıracaq və səhər özünüzü gümrah hiss edəcəksiniz. Bundan başqa, fiziki hərəkətlər nəticəsində siz yorulacaqsınız ki, bu, yuxuya getməyi asanlaşdırır.

- yataq otağı sakit və qaranlıq olmalıdır. Əgər səs mane olursa, qulağınızı xüsusi tıxac və ya "ağ küy" qurğusu ilə bağlayın. Bəzi adamlar işləyən fen və ya kondisionerin səsi altında yatmağa üstünlük verirlər.

- yuxu üçün optimal temperatur 15.5-18.3 dərəcədir. Həmçinin yaxşı yuxu üçün döşəyin bərk və rahat olması çox vacibdir.

- qısamüddətli gündüz yuxusundan imtina etmək yaxşı olar. Müddəti 20 dəqiqədən az olan bu cür yuxu orqanizmi gümrah edə bilər. Lakin gündüz 4 saatdan çox yatmaq yuxunun normal strukturuna təsir edə bilər və yuxusuzluq yaradar.

- işığı söndürməzdən əvvəl bir neçə dəqiqə kitab oxuyun. Bu, sizi rahat edər və tez mürgüləyərsiniz.

- nəyisə hesablamaq tövsiyə edilmir. Hesab diqqəti müəyyən məsələyə yönəldir. Əksinə, çalışın özünüzü xoşagələn bir sahədə təsəvvür edin. Təxəyyülünüzü işə salın ki, yuxuya gedən zaman sakitləşdirici səsləri eşidəsiniz.

- çarpayı istirahət yeri olmalıdır. Dəhşətlər filminə baxmaq, sabahkı iş gününün planını qurmaq stress və narahatlıq yaradır. Odur ki, yataqda bu məsələlərlə məşğul olmaq lazım deyil.

- yuxusuzluq üçün əla vasitə içində qurudulmuş mayaotu qozaları olan yastıqdır. Fındıq ağacı yarpağı və şam ağacı budağı da yuxusuzluğun öhdəsindən gəlməkdə kömək edə bilər. Həmçinin qaraqınıq və nanə yarpaqlarını da götürmək lazımdır. Qurudulmuş komponentləri qarışdırırıq və yastığa doldururuq.

İnsanların çoxu yuxusuzluğa görə həkimə müraciət etməyə məcburdur. Bununla belə həkimlər də əvvəlcə sizin probleminizi dərmansız həll etməyə çalışırlar. Əlacsız qaldıqda dərmandan istifadə etmək lazımdır. Adi yuxugətirən dərmanlar normal yuxunun yaranmasına kömək etmir, lakin şüuru kəskin incidir. Reseptsiz satılan bir çox yuxu dərmanları "placebo" effekti yaradır ki, bu da onu göstərir ki, dərmanın təsiri əslində pasiyentin ona inanması ilə bağlıdır.

Həkim yuxusuzluğun səbəbini müəyyən edə bilər və müalicə, lazım gəldikdə yuxu dərmanı da təyin edə bilər. Yuxu dərmanından həkimin məsləhəti olmadan istifadə etmək olmaz. Adətən bu cür vasitələr yuxuya getməkdə müvəqqəti çətinliyi yüngülləşdirir. Onlardan uzun müddət istifadə edilməsi orqanizmin bu dərmanlara öyrəşməsinə gətirib çıxarır.

## YARIZARAFAT, YARIGERÇƏK

**Yaxşı adamları Tanrı qoruyur. Amma Tanrının da bəzən işi o qədər çox olur ki...**

**Elə bir adam yoxdur ki, əlindən heç nə gəlməsin. Məsələn, problem yaratmağı hamı bacarır.**

**Təzə işçinin necə çıxacağını hətta uzun illər bazarda qarpız satanlar da bilə bilməz.**

**Yaşayanlar deyirlər ki, həyat çox gözəldir. Yaşayanların hamısı yalan danışmaz ki...**

**Tənha qalmaqdan həmişə qorxmuşam. Təkcə ona görə yox ki, zibili də mən atacağam.**

**Bütün maaşa baxanlar üçün ən gözəl ay yəqin ki, fevraldır.**

**Qırx yaşınıza kimi heç nə qazanmamısınızsa, buna görə çox da təəssüflənməyin. Deməli, itirəcəyiniz bir şey yoxdur.**

**Əvvəllər hava haqqında proqnozlar düz çıxmırdı. İndi bütün proqnozlar içində ən düzü, deyəsən elə hava proqnozudur axı...**

**Bəzi adamlar axşamdan xeyli keçmiş zəng edəndə elə üzr istəyirlər, elə bil gündüz zəng eləsələr, çox sevinəcəyəm.**

**Bir çox xarici dilləri o dillərdə bir kəlmə belə danışa bilməyənlərin hamısından yaxşı bilirəm.**

**İşin düzələcəksə, haqqımda daha bir neçə yalan danışmağına dözə bilərəm.**

**Pul hər şeyi həll edir deyə, məsələni həll etməyə çətinlik çəkən məktəbli nəvəmə bir onluq verdim.**

**Fikir vermisiniz, Şaxta babanı yaxşı qarşıladıqca, hər il bizdə qış daha sərt keçir.**

**Bəzən istəyirsən ki, pis vərdişlərinə birdəfəlik tüpürəsən. Sonra fikirləşirsən ki, tüpürmək yaxşı deyil.**

**Bəzilərini necə başa salasan ki, lifti olan köhnə binalarda liftə minməmək bir ayıbdır, minib çıxa bilməmək iki ayıb.**

**Artıq çəkidən təbii yolla xilas olmaq üçün indikidən gözəl zaman?**

**Həyat yoldaşıma "şuba" almadığıma ondan çox, mən peşmanam. İndi o qiymətə bazarda meyvə satırlar.**

**Boş söhbətdir ki, indi hər şeyin qiyməti qalxır, hər şey bahalaşır. Şəxsən məni indi əvvəlki vaxtlardan çox ucuz satırlar.**

**7-ci mərtəbəyə təzə qonşular köçməmişdən əvvəl sən demə, mən 6-cı mərtəbədə əməlli-başlı yaşamışammış.**

**Məndən xoşu gəlməyənlər yanılmayıblar, çünki, bəzən heç özümün də özümdən xoşum gəlmir.**

**İt yaxşı heyvandır və insanın da dostudur. Amma bu, kiməsə adamı it kimi qapmağa əsas vermir.**

**Dünyada şər, böhtan, yalan yarışları keçirilmir? Mən əminəm ki, bu yarışlarda ermənilər həmişə birinci yeri tutarlar.**

**Hər dəfə məkrli ermənilərin hərəkətlərini görəndə istər-istəməz fikirləşirəm ki, yer üzündə kifayət qədər dərd-bəla ola-ola, Allah bu adda milləti də niyə yaradıb?**

**Gözəgörünməz təyyarələr və bir də iş görmək lazım gələndə gözəgörünməzə çevrilən işçilər olur.**

**Mən çiyninə düşən yükün ağırlığı baxımından qadın olmağın çətinliyini başa düşürəm. Amma bəzi kişilərə Kişi olmaqda nə mane olduğunu anlaya bilmirəm.**

**Mənə elə gəlir ki, ərlərinə "Sən otur yerində!" və ya "İşdən sonra düz evə gəl!" deyən qadınlar bəzi müəssisələri kişilərdən yaxşı idarə edərlər.**

**Bəzi adamların yaşı əllini, altmışı, yetmişi... keçəndə də yenə nəyinsə keçməyini gözləyirlər.**

**Hamımızı qadınlar dünyaya gətiribsə, bu o demək deyil ki, bütün bəlaların səbəbkarı məhz qadınlardır.**

**İnsanı əmək yaradıbsa, işləyənlərin hamısı ən azı adam olmalıdır axı...**

**Turpun kiloqramı neçəyə satılır ki, bəzi adamların başında da turp əkirlər?**

**Başları heç nədən çıxmayanlar adətən daha çox özlərindən çıxırlar.**

**Bəzi xidmətlər hətta qışa qışda hazırlaşmağa başlasalar, heç olmasa növbəti qışa hazır olmalıdırlar axı...**

**Saçlarım yanmayıbsa, bu o demək deyil ki, bəzi haqsızlıqlardan təpəmdən heç vaxt tüstü çıxmayıb.**

**İndi pisliklə heç kəsi heyrətləndirmək mümkün deyil. Amma bircə dəfə yaxşılıq et və adamların üzündəki heyrətə bax.**

**Bəzi verilişlər göstərir ki, əksər televiziya kanalları göstərməyə bir şey tapmırlar.**

**Adətən yaxşı adamlar yaxşı işlərlə, pis adamlar pis işlərlə məşğul olurlar. Qalanları da tamaşa etməyi xoşlayırlar.**

**Mənasız yerə vaxt itirəni sonralar vaxt özü elə "itirir" ki, heç nəyə vaxt tapa bilmir.**

**Həqiqətə nə isə qatanda, həqiqətdən daha çox, qatılan şeyə oxşayır.**

**Hələ də bəzi adamlara çatmır ki, "Oxumaq, oxumaq, yenə də oxumaq!" deyəndə müğənni kimi oxumağı nəzərdə tutmayıblar.**

**Həqiqətin iki ayağı, yalanın isə bəzən qanadları da olur.**

**Başında bir şey olmayanın cibləri qızılla dolu olsa da, başlıların yanında həmişə kasıb görünər.**

**Ağıllılar arasında bir gün yaşamaq, axmaqlar arasında bir ömür sürməkdən yaxşıdır.**

**Tələlərdə nədənsə daha çox xarici pendir olur.**

***Rasif TAHİROV***

DƏNİZ

10 fevral 2017-ci il № 9-12 (9103)




# NAMİZƏDLİYİNİ İRƏLİ SÜRÜB

***Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) 2019-cu ildə keçiriləcək UEFA Çempionlar Liqası və UEFA Avropa Liqası turnirlərinin final oyununun təşkili ilə bağlı namizədliyini irəli sürüb.***

AZƏRTAC xəbər verir ki, AFFA UEFA-ya müraciətində qeyd olunan turnirlərin həlledici qarşılaşmasının keçirilməsi üçün Bakı Olimpiya Stadionunu təklif edib.

Hər iki oyunun keçirilməsi üçün namizədliyi irəli sürmüş bütün stadionların siyahısını diqqətinizə çatdırırıq:

UEFA Çempionlar Liqası
Azərbaycan – Bakı – Bakı Olimpiya Stadionu
İspaniya – Madrid – Estadio Metropolitano
UEFA Avropa Liqası
Azərbaycan – Bakı – Bakı Olimpiya Stadionu
Gürcüstan – Tbilisi – Dinamo Arena
Almaniya – Frankfurt – Frankfurt Stadion
Almaniya – Ştutqart – Arena Stuttgart
Şotlandiya – Qlazqo – Hampden Park
İspaniya – Sevilya - Estadio Ramon Sanchez Pizjuan
Türkiyə - İstanbul – Beşiktaş Arena

UEFA-nın İcraiyyə Komitəsi hər iki turnirin final oyununun keçiriləcəyi stadionlarla bağlı qərarı bu ilin sentyabrında qəbul edəcək.

# 13 MEDAL QAZANIBLAR

***Azərbaycan cüdoçuları İtaliyanın Liqnano şəhərində ənənəvi "Alpe Adrea" beynəlxalq turnirində 5 qızıl, 4 gümüş və 4 bürünc medal qazanıblar.***




Cüdo Federasiyasından bildiriblər ki, 22-ci dəfə baş tutan festivalda Avropanın müxtəlif ölkələrindən 1046 gənc cüdoçu mübarizə aparıb.

Azərbaycan komandasının heyətində Hacı Musayev (55kq), Kəramət Hüseynov (60 kq), İsmayıl İbrahimov (66 kq), Hasil Cəfərov (73 kq) və Aslan Mirzəyev (90 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar. Natiq Qurbanlı (60 kq), Naim Hüseynov (81 kq), Azər Yaqubov (90 kq) və Ayxan Cəfərov (+100 kq) gümüş, Tofiq Məmmədov (60 kq), Murad Heydərli (60 kq), Vüsal Cəmilzadə (73 kq) və Samir Ağayev (81 kq) isə bürünc medala sahib olublar.



Beləliklə, 13 medal əldə edən gənclərdən ibarət milli komandamız ümumi hesabda 1-ci yeri tutub.

# 168 İDMANÇI GÜCÜNÜ SINAYIB

***Rusiyanın Ryazan şəhərində Sovet İttifaqı qəhrəmanı İ.Zaytsevin xatirəsinə həsr olunmuş 44-cü ənənəvi turnirə yekun vurulub.***



Turnirdə 21 komandanın tərkibində 168 idmançı gücünü sınayıb.

"Neftçi İdman Klubu"nun yığmamızın heyətində yer almış yunan-Roma güləşçisi Kamran Mirzəliyev (60 kq) böyük əzmkarlıq nümayiş etdirərək turnirin qalibi adını qazanıb.

Gənc pəhləvanımız yarımfinalda Rusiyadan olan erməni əsilli idmançı Vladislav Beqyanı məğlub edərək finala vəsiqəni təmin edib. Həlledici görüşdə rusiyalı Andrey İvanov üzərində inamlı qələbə qazanan K.Mirzəliyev turnirin qızıl medalına sahib olub.

# İSPANİYALI HÜCUMÇU "NEFTÇİ"DƏ

***"Neftçi" Peşəkar Futbol Klubu qış transfer dönəmində sonuncu transferini həyata keçirib.***




Klubdan bildiriblər ki, ispaniyalı hücumçu Daniel Seqoviya ilə bir il yarım müddətinə müqavilə bağlanıb. Sonuncu klubu "Sankt-Pyolten"də (Avstriya) 66 oyunda meydana çıxmış futbolçu 29 qola imza atıb. 31 yaşlı hücumçu indiyədək isə İspaniyanın "Rayo Valekano", "Fuenlabrada", "Alxesiras", "Real Saraqosa" B, "Atletiko Pinto", "Konkense", "Atletiko Baleares", Fransanın "Olimpik Marsel" B, Avstriyanın "Admira Vakker" və "Volfsberger" klublarında çıxış edib.

Daniel Seqoviya "Neftçi"də 12 nömrəli formanı geyinəcək.

# YARIŞA 300-DƏN ÇOX ATLET QATILIB



***Hövsan Olimpiya İdman Kompleksində pankration, qraplinq və MMA idman növləri üzrə açıq Bakı çempionatı və birinciliyi keçirilib.***

Gərgin idman mübarizəsi şəraitində keçən yarışa 300-dən çox atlet qatılıb.

"Neftçi İdman Klubu"nun təmsilçiləri çempionatda aşkar üstünlükləri ilə seçiliblər və ümumilikdə yarışın 29 medalına (8 qızıl, 6 gümüş, 15 bürünc) sahib olublar.

Qraplinq yarışlarında İmran Abbasquliyev (16-17 yaş, 58 kq), Coşqun Dəlişov (20 yaşdan yuxarı, 62 kq), Teymurşah Cəmaləddinov (20 yaşdan yuxarı, 71 kq) və Həzi Həsənov (20 yaşdan yuxarı, 92 kq) əzmlə mübarizə apararaq qalib adını qazanıblar.

MMA idman növündə iyirmi yaşdan yuxarı idmançılar arasında Coşqun Dərişov (71 kq), Nemət Məmmədov (77 kq) və Əli Əlizadə (100 kq) rəqib tanımayaraq liderliyə yüksəliblər.

Pankrationçuların mübarizəsində isə Rasim Abdulrəhmanov (14-15 yaş, 73 kq) bütün döyüşlərdən qalib ayrılıb və paytaxt birinciliyinin qızıl medalına yiyələnib.

"Neftçi İdman Klubu" ümumi komanda hesabında birinci yeri tutub.

# FUTZAL ÜZRƏ AVROPA ÇEMPİONATININ TƏSNİFAT MƏRHƏLƏSİ BAŞA ÇATDIQDAN SONRA MİLLİ KOMANDALARIN YENİ REYTİNQ SİYAHISI AÇIQLANIB

***AZƏRTAC xəbər verir ki, planetin 10 ən güclü komandasının mövqeyi dəyişməz qalıb. Azərbaycan millisinin xal ehtiyatı dəyişməyib. Aktivində 1435 xal olan komandamız mövqeyini də qoruyub. Yığmamız yenə də planetin 10-cusudur.***



Millimizin Avropa çempionatının seçmə mərhələsindəki rəqiblərimizin mövqeyinə gəlincə, Macarıstan 1192 xalla 30-cu, Bosniya və Herseqovina 1129 xalla 38-ci yerdə qərarlaşıb. Təsnifat mərhələsini adlayan Albaniya 843 xalla 77-ci yerdə qərarlaşıb.

Reytinq cədvəlinə 1916 xalla Braziliya millisi liderlik edir. İspaniya 1893 xalla ikinci, Rusiya isə 1766 xalla üçüncü pillədə yer alıb.




# KİŞİ İDMAN GİMNASTİKASI ÜZRƏ AVROPA ÇEMPİONATI BAKIDA TƏŞKİL OLUNACAQ



***2020-ci ildə kişi idman gimnastikası üzrə Avropa çempionatı Bakıda təşkil olunacaq. Bu barədə qərar Avropa Gimnastika İttifaqının Lozannadakı baş qərargahında qurumun İcraiyyə Komitəsinin iclasında qəbul olunub.***

İclasda Azərbaycan Gimnastika Federasiyasının 2020-ci ildə idman gimnastikası üzrə Avropa çempionatının ölkəmizdə keçirilməsi ilə bağlı namizədliyi məsələsinə baxılıb. Müzakirələrdən sonra kişi idman gimnastikası üzrə 34-cü Avropa çempionatının 2020-ci il mayın 6-10-da Bakıda keçirilməsi qərara alınıb. Qadın idman gimnastikası üzrə 33-cü Avropa çempionatının təşkili isə Parisə həvalə olunub.

Beynəlxalq Gimnastika Federasiyasının 2017-2020-ci illərdə Olimpiya dövrü üzrə yeni qaydalarına əsasən, Avropa çempionatlarında da "Tokio-2020"yə lisenziya qazanmaq imkanı olacaq.

Bundan əlavə, Azərbaycan Gimnastika Federasiyası növbəti Olimpiadaya qədər gimnastikanın üç növü (idman gimnastikası, batut gimnastikası, bədii gimnastika) üzrə məhz lisenziya xarakteri daşıyan dünya kuboku mərhələlərini, həmçinin bədii gimnastika üzrə dünya çempionatını təşkil edəcək.




# YENİ QAYDALAR ƏSASINDA MÜBARİZƏ APARACAQLAR

***Azərbaycan Gimnastika Federasiyası bu il yarışlar mövsümünə batut gimnastikası və tamblinq üzrə dünya kuboku yarışları ilə start verəcək.***



Yeni Olimpiya dövrünün batut gimnastikası üzrə ilk dünya kuboku yarışı fevralın 18-19-da Milli Gimnastika Arenasında keçiriləcək. On beş ölkədən 85 batutçu və tamblinqçi iki gün ərzində 2017-ci ildə qüvvəyə minən yeni qaydalar əsasında gərgin mübarizə aparacaq. Yarışların birinci günündə təsnifat, növbəti günündə isə final mərhələləri olacaq.

Azərbaycanı bu yarışlarda fərdi və sinxron proqramda İlya Qrişunin, Oleq Piunov, Ruslan Ağamirov, Svetlana Makştarova, Veronika Zemlyanaya və tamblinq cığırında Mixail Malkin təmsil edəcəklər.

Ölkəmizdə 2013-cü ilin sonundan inkişaf etməyə başlayan batut gimnastikası üzrə mötəbər tədbir - dünya kuboku artıq ikinci dəfədir təşkil olunur. Tamblinq üzrə dünya kuboku isə Azərbaycanda ilk dəfə təşkil olunacaq. Gimnastika yarışlarının daim yüksək səviyyədə təşkil olunması bu mötəbər turnirlərin də bir çox yeniliklərlə yadda qalacağını deməyə əsas verir.

Tamaşaçılar havada pərvazlanan ulduz batutçu və tamblinqçilərin təqdimatında maraqlı mübarizənin şahidi olmaqla yanaşı, əyləncəli müsabiqələrdə və fləşmoblarda da iştirak edə biləcəklər.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz
Gəmiçiliyi"
Qapalı Səhmdar
Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin
kompyuter mərkəzində
yığılmış, səhifələnmiş və
"Azərbaycan" nəşriyyatında
çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 405